# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Nümunəvi tolerantlıq örnəyi - AZƏRBAYCAN!



3

SƏS

№ 148 (7316)

20 avqust 2025-ci il.
Qiyməti 60 qəpik

## "Bu nəticələr regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaradıb"



2

Prezident İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidentini qəbul edib

# Pezeşkianın İrəvan səfərinin bəzi məqamları



4

### İnternet asılılığı gənclərin sosial münasibətlərini zəifləndir



5

### "Rusiyada azərbaycanlılara qarşı təzyiqlər millətçilik və dini ayrıseçkilik nümunəsidir"




6

### Alimenti ancaq ata ödəməlidir?



10

## Ərzaq təhlükəsi(zliyi)



7

## Bahalı məzar daşı cənnətə aparmır!



5

# “Bu nəticələr regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaradıb”

## Prezident İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidentini qəbul edib

***Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Koheni qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Cared Kohenin bu ilin yanvarında Davosda görüşü məmnunluqla xatırlandı.***

Ölkəmizlə ”The Goldman Sachs Group Inc.” şirkəti arasında 2010-cu ildən səmərəli əməkdaşlığın qurulduğu qeyd edilərək, Azərbaycan Respublikası Dövlət Neft Fondunun bu şirkətlə uğurlu tərəfdaşlığından məmnunluq bildirildi.

Görüşdə avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlərin önəminə toxunuldu və bu nəticələrin regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaratdığı vurğulandı. Söhbət zamanı ölkəmizlə şirkət arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, ”The Goldman Sachs Group Inc.” 1869-cu ildə təsis olunub. İnvestisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə olunması sahələrində xidmətlər təqdim edən aparıcı qlobal maliyyə institutu hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. Mənzil-qərargahı Nyu-York şəhərində yerləşən şirkət 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.





# Şavkat Mirziyoyev: Azərbaycan Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü rolunu oynayır

***Son illərdə Özbəkistan-Azərbaycan münasibətləri qarşılıqlı etimad və dəstək ruhunda fəal şəkildə inkişaf edir, Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalanıb, Ali Dövlətlərarası Şura fəaliyyət göstərir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ”Özbəkistan, Azərbaycan və Avropa - ümumi inkişaf naminə əməkdaşlıq” adlı yüksəksəviyyəli görüşün iştirakçılarına müraciətində əksini tapıb. ”Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü rolunu oynayır”, - deyə o bildirib.***






Qeyd olunub ki, Avropa İttifaqı və digər tərəfdaşlarla birlikdə Özbəkistan səmərəli nəqliyyat-logistika və enerji dəhlizlərinin inkişafı istiqamətində məqsədyönlü işləri davam etdirəcək.

”Mən əminəm ki, bu tədbirlər bölgəmizin Qərb ilə Şərq arasında hab rolunu bərpa etməsinə imkan verəcək”, - deyə Prezident əlavə edib.

Ş.Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevin yeni ümumregional proseslərin inkişafında iştirak etmək və Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında əməkdaşlığın möhkəmləndirilməsi sahəsindəki səylərini yüksək qiymətləndirib. O, Vaşinqtonda Ermənistanla imzalanmış üçtərəfli Birgə Bəyannamə münasibətilə dost Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib.

Bu gün Özbəkistanın dinamik islahatları davam etdirdiyini və bu istiqamətdə artıq böyük nailiyyətlər qazandığını bildirən Prezident qeyd edib: ”İndiki son dərəcə mürəkkəb dövrdə Özbəkistan və Mərkəzi Asiya regionu beynəlxalq ictimaiyyətə əvəzsiz resurs - sabitlik, etimad və inkişaf təklif edir”.

Şavkat Mirziyoyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük azərbaycanlı mütəfəkkir Nizami Gəncəvinin bənzərsiz yaradıcılıq irsinin qorunmasında və geniş təbliğində mühüm rolunu da xüsusi vurğulayıb.

”Mərkəzin beynəlxalq gündəliyə dair məsələlərin öyrənilməsində fəal iştirakı xüsusi diqqətə layiqdir. Onun himayəsi ilə keçirilən illik Qlobal Bakı Forumu beynəlxalq və regional miqyasda ən aktual problemlərin həlli üçün yeni ideyaların irəli sürüldüyü nüfuzlu qlobal dialoq platformalarından birinə çevrilib”, - deyən Prezident diqqətə çatdırıb. Deyib ki, bu görüş Mərkəzi Asiyanı dünyaya geniş şəkildə təqdim etmək, konsolidasiya və əməkdaşlıq proseslərinin sürətləndiyi bir vaxtda regionlararası qarşılıqlı əlaqələri möhkəmləndirmək, eləcə də Özbəkistan və Azərbaycanın potensialından, imkanlarından tam istifadə məsələlərini müzakirə etmək üçün unikal imkandır.



# Andrey Sibiqa: Rusiya SOCAR-ın Odessadakı neft bazasına qəsdən hava zərbələri endirir

***Rusiya SOCAR-ın Odessa vilayətindəki neft bazasına artıq ikinci dəfə zərbə endirib. İşğalçı ölkə bunu bilərəkdən, Azərbaycanın maraqlarına zidd olaraq edir.***

AZƏRTAC xəbər verir ki, bu barədə Ukraynanın xarici işlər naziri Andrey Sibiqa bildirib. ”Bu gecə ruslar Odessa vilayətində SOCAR-ın neft terminallarına zərbələr endiriblər. Bu, artıq Rusiyanın Azərbaycan dövlət şirkətinə son həftələrdə ikinci zərbəsidir”, - deyə Sibiqa qeyd edib. Onun sözlərinə görə, bu, bir daha Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın yeni səviyyəsinin vacibliyini, eləcə də bu cür hücumlara müvafiq diplomatik və hüquqi cavabların verilməsinin zəruriliyini nümayiş etdirir.

Xatırladaq ki, avqustun 18-nə keçən gecə ruslar ”Şahed” kamikadze dronları ilə Azərbaycanın SOCAR şirkətinin Odessa vilayətində yerləşən neft bazasına zərbələr endirib. Bu, artıq son iki həftədə ikinci hücumdur. Məlum olduğu kimi, bir sıra birbaşa zərbələrdən sonra neft bazasında güclü yanğın başlayıb. Bütün çənlər, nasos stansiyası, operator otaqları, çəki və texniki konstruksiyalar zədələnib, hasar dağıdılıb. Anbarda yanacaq anbarının həcmi 16 min kubmetrdən çoxdur. Bundan başqa, avqustun 8-də SOCAR-ın neft bazası artıq ruslar tərəfindən hücuma məruz qalmışdı.

# Nümunəvi tolerantlıq örnəyi - AZƏRBAYCAN!



Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: "Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir". Çağdaş dünyamızın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Dünyanın diqqətində olan ölkəmizdə - Azərbaycanda isə nümunəvi dövlət-din münasibətləri uğurla həyata keçirilir və tolerant mühit hökm sürür. Əlbəttə ki, mövcud vəziyyət, dövlət siyasəti bəşəri dəyərlər sistemінə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib.

### AZƏRBAYCAN CƏMİYYƏTİNİ SƏCİYYƏLƏNDİRƏN ƏNƏNƏ

Dini dözümlülük, tolerantlıq kimi dəyərlər Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əsas Ana Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara məsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımızın əmin-aman şəraitdə yaşaması, birlik, həmrəylik nümayiş etdirməsi şübhəsiz ki, əsrlərin sığından çıxan dəyərlərdən qaynaqlanır. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib.

### TOLERANT MÜHİT - BƏRABƏRLİYİN, DEMOKRATİYANIN, SOSİAL RİFAHIN VƏ ƏDALƏTİN BƏRQƏRARI

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Təbii ki, tolerant mühitin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, ədalətin bərqərarı deməkdir.

Dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olan Azərbaycanda xristian icması əsrlər boyunca tariximizin formalaşmasında iştirak edib. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. "Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik",

### BÜTÜN XALQLARIN TARİXİ BİRLİYİ VƏ QARDAŞLIĞI

Çətin, ağır, eləcə də xoş günlərdə də bütün xalqların nümayəndələri bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatlarını qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdurmaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

### "MUSİQİ ATLASI" LAYİHƏSİ

Azərbaycanda yaşayan milli azlıqlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, udilərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Axıska türklərinin Vətən Cəmiyyəti və s. nümunə göstərmək olar. Təsadüfi deyil ki, azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi "Musiqi Atlası" layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir.

Bütün xalqların dini-mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki kilsələr, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi və s misal göstərmək olar.

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları çox təqdirəlayiqdir. Azərbaycanda yaşayan yəhudilər də hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsi kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində böyük uğurlara nail olub. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirir.

"Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir", - deyə Prezident bildirib.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdəki mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədi ilə maliyyə yardımları ayrılır. Prezidentin qeyd olunan sərəncamları Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna və s. şamil olunur.

Dünyada xalqlar arasında etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təsis edilməsi və xalqımızın tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədilə Azərbaycanda 2011-ci ildən başlayaraq Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Ötən illər ərzində bu forum qloballaşan dünyamızı narahat edən ən mühüm məsələlərə dair fikir mübadiləsi aparmaq üçün beynəlxalq platformaya çevrilib. Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirildi. Azərbaycanın əldə etdiyi uğurlar, həyata keçirilən inkişaf siyasəti öz növbəsində ölkəmizin beynəlxalq nüfuzunun artmasına, qlobal əhəmiyyətli tədbirlərin keçirildiyi məkana çevrilməsinə səbəb olub. Bakı Beynəlxalq Humanitar Forumu göstərir ki, Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi, həmçinin, humanitar məsələlərin müzakirə olunduğu məkandır. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Pezeşkianın İrəvan səfərinin bəzi məqamları

***İran İslam Respublikasının prezidenti Məsud Pezeşkianın İrəvana səfəri baş tutub. Hava limanında iranlı qonağı erməni rəsmilər qarşılayıb. Paşinyan ali qonağı öz iqamətgahında qarşılamağı lazım bilib. Paşinyan və Pezeşkian arasında İrəvanda geniş tərkibdə görüş keçirilib. Bir sıra sənədlər imzalanıb. Ermənistanın baş naziri Nikol Paşinyanla İran prezidenti Məsud Pezeşkian arasında geniş tərkibdə görüş keçirilib. Bu barədə Ermənistan mənbələri xəbər verib.***



Bundan əvvəl Ermənistan prezidentinin iqamətgahında Paşinyanla Pezeşkian arasında təkbətək görüş baş tutub. İİR prezidenti avqustun 21-dək Ermənistanda qalacaq. Avqustun 19-da Ermənistan və İran əməkdaşlığa dair bir sıra sənədlər imzalayıblar. Bu, İran prezidenti Məsud Pezeşkyanın Ermənistana səfəri çərçivəsində baş verib. O cümlədən, Ermənistan və İran Xarici İşlər Nazirlikləri arasında 2025-2027-ci illər üçün siyasi məsləhətləşmələr haqqında anlaşma memorandumu, Ermənistan İqtisadiyyat Nazirliyi ilə İranın Standartlaşdırma üzrə Milli Təşkilatı arasında standartlaşdırma, akkreditasiya, uyğunluğun qiymətləndirilməsi və texniki tənzimləmə sahələrində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Ermənistan və İran həmçinin 2025-2029-cu illər üçün peşə təhsili və təlimi sahəsində əməkdaşlıq, şəhərsalma sahəsində əməkdaşlıq, muzey əməkdaşlığı, tibbi cihazların tənzimlənməsi, kino sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumları imzalayıblar. Bundan əlavə, tərəflər Ermənistan



Milli Arxivi ilə İran Milli Kitabxanası və Arxivləri arasında anlaşma memorandumu imzalayıblar.

Məlumata görə, daha sonra geniş tərkibdə görüş keçirilib, bundan sonra Ermənistanın baş naziri və İran prezidenti mətbuata bəyanatlarla çıxış ediblər. Ermənistan və İran 10 anlaşma memorandumu imzalayıb. İrəvan və Tehran bir sıra sahələrdə əməkdaşlığı dərinləşdirmək niyyətindədir. Ermənistan və İran arasında siyasi, iqtisadi və mədəni sahələrdə 10 anlaşma memorandumu imzalanıb. Sənədlər İran prezidenti Məsud Pezeşkianın başçılıq etdiyi nümayəndə heyətinin İrəvana səfəri çərçivəsində imzalanıb. Ermənistan və İranın xarici işlər nazirləri Ararat Mirzoyan və Abbas Araqçi 2025-2027-ci illər üçün xarici işlər nazirlikləri arasında məsləhətləşmələr planını imzalayıblar. Ermənistanın iqtisadiyyat naziri və İranın vitse-prezidenti standartlaşdırma, yoxlama, uyğunluğun qiymətləndirilməsi, metrologiya və texniki tənzimləmə sahəsində əməkdaşlıq haqqında memorandum imzalayıblar. Turizm sahəsində əməkdaşlığa dair memorandum da imzalanıb.

Tərəflər həmçinin 2025-2029-cu illərdə peşə təhsili sahəsində əməkdaşlığa, şəhərsalma və yol tikintisi sahəsində əməkdaşlığa, tibbi məhsulların istehsalının tənzimlənməsi sahəsində əməkdaşlığa dair memorandumlar imzalayıblar. Xatırladaq ki, İran prezidenti Məsud Pezeşkian Ermənistana ilk rəsmi səfərini avqustun 18-də edib. O, bir gün əvvəl İrəvandakı şiələrin Göy məscidində olub, namaz qılıb, həmçinin erməni iranlılarla görüşüb. Avqustun 19-da səhər dar və geniş tərkibdə Ermənistan-İran danışıqları keçirilib.

## İran Ermənistanla Fars körfəzi-Qara dəniz dəhlizinin aktivləşdirilməsində maraqlıdır

İran və Ermənistan Fars körfəzi-Qara dəniz dəhlizinin aktivləşdirilməsində maraqlıdır. Bunu avqustun 19-da İrəvanda Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra İran prezidenti Məsud Pezeşkian deyib. Onun sözlərinə görə, tranzit dəmir yolu, avtomobil və dəniz yollarının inkişafı, hər iki ölkənin potensialından istifadə, ticarətin inkişafı və ümumi azad iqtisadi zonaların yaradılması İran və Ermənistan arasında əməkdaşlıq sahələridir və tərəflər bu istiqamətdə konstruktiv dialoq aparırlar. Pezeşkian əlavə edib ki, İran Ermənistanla bütün sahələrdə əlaqələri inkişaf etdirməyə və strateji səviyyəyə çatdırmağa çalışır. O, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, energetika, mühəndislik xidmətləri, mədəniyyət və tibb sahələrində yaxşı inkişaf etdiyini bildirib.

”Ermənistanın baş naziri ilə mənalı danışıqlar apardıq və bu gün sənədlər imzalandı, nəticədə qarşılıqlı səfərlərin əhəmiyyəti də vurğulandı. Biz sərhəd təhlükəsizliyi və turizmin inkişafı məsələlərini də müzakirə etdik. Münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsinin vacibliyini vurğulayaraq və mövcud etimad mühitinə arxalanaraq, xüsusilə iqtisadi sahədə əməkdaşlığın inkişafına çalışırıq”, - deyə İran prezidenti əlavə edib. O, Ermənistanın baş nazirinin tezliklə İrana səfər edəcəyinə ümid etdiyini bildirib.

## Paşinyan: Münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə qaldırılacaq

”Hər ikimiz razılaşdıq ki, ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək üçün işləməyin vaxtı çatıb”. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda İran prezidenti Məsud Pezeşkianla görüşündən sonra deyib. Onun sözlərinə görə, hökumətlər arasında qurulan fəal və konstruktiv dialoq Ermənistan və İran arasında qardaşlıq münasibətlərinin davamlı inkişafının təminatlarından biridir. Paşinyan İran prezidenti Pezeşkianın səfərinin Ermənistan və İran arasında dostluq münasibətlərinə yeni təkan və keyfiyyət verəcəyinə əminliyini bildirib. ”Ermənistan və İran xalqları arasında mövcud güclü və qarşılıqlı faydalı tərəfdaşlıq zamanın sınağından şərəflə çıxmış və müəyyən mənada xalqlarımızın tarixi yolunu birləşdirən sıx dostluğa əsaslanır”, - o əlavə edib.

## Araz üzərində ikinci körpü tikiləcək

Ermənistan və İran Araz çayı üzərində ikinci körpünün tikintisinə dair razılığa gəliblər. Bu barədə İranın rəsmi nümayəndə heyətinin tərkibində İrəvanda səfərdə olan İranın yollar və şəhərsalma naziri Fərzanə Sadiq Tasnim agentliyinə müsahibəsində bildirib. Bundan əvvəl Ermənistan və İran arasında ikinci körpünün tikintisi üzrə layihələndirmə işlərinin başa çatdırıldığı bildirilib. Sadiqin qeyd etdiyi kimi, Noraduzda ikinci körpünün tikintisi, mövcud körpünün yenidən qurulması, sərhəd terminallarının təkmilləşdirilməsi, eləcə də yük maşınları üçün rüsumlara yenidən baxılması ilkin olaraq razılaşdırılıb. ”Bu addımlar yükdaşıyanların işini asanlaşdıracaq və tamhüquqlu tranzit paketi formalaşdıracaq. Paket yaxın aylarda tamamlanacaq”, - iranlı nazir bildirib.

Onun sözlərinə görə, dəmir yolu layihələrinə xüsusi diqqət yetirilir. Sadiq Fars körfəzini Qara dənizlə birləşdirən dəmir yolu xəttinin strateji əhəmiyyət daşıdığını vurğulayıb. İranda yol artıq Culfaya çatır və Culfa-İrəvan marşrutu təsdiqlənib. Bundan əlavə, tərəflər hava daşımaları sahəsində memorandum imzalamağa hazırlaşır. Ermənistanın dənizə çıxışı olmadığı nəzərə alınaraq, liman infrastrukturu sahəsində əməkdaşlıq da gündəliyə daxil edilib. Bu məqsədlə İranın cənubundakı Fars körfəzi və Oman dənizi sahillərindəki limanların logistik potensialından istifadə edilməsi planlaşdırılır. ”Bu təşəbbüslər İran, Ermənistan, Avropa və Şərqi Asiya arasında tranzitin inkişafı üçün möhkəm zəmin yaradacaq”, - Sadiq qeyd edib. Eyni zamanda, İrəvanda Fars körfəzi-Qara dəniz avtomobil və dəmir yolu dəhlizinin inkişafı haqqında saziş də razılaşdırılıb.

Daha əvvəl Ermənistan Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin mətbuat xidməti bildirib ki, İrəvan və Tehran Araz çayı üzərindən ikinci körpünün tikintisinin texniki aspektlərini müzakirə etməkdə davam edir. Xatırladaq ki, Araz üzərində yeni körpünün planlaşdırılması işlərinə 2023-cü ilin sonlarında başlanılıb. İrəvan 1995-ci ildə tikilmiş mövcud körpünün yanında paralel tikinti imkanlarını da nəzərdən keçirib.

## Ermənistan-İran: Əməkdaşlıq üfüqləri

Avqustun 18-də Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan İranın sənaye, mədən və ticarət naziri Seyid Məhəmməd Atabakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Ermənistanın İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı Papoyan qeyd edib ki, Ermənistan İranla mehriban qonşuluq münasibətlərini yüksək qiymətləndirir və həm dövlət səviyyəsində, həm də biznes icmaları arasında əməkdaşlıq üçün geniş üfüqlər görür.

Tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması və işgüzar əlaqələrin gücləndirilməsi ilə bağlı geniş spektrli məsələləri müzakirə ediblər. Aİİ ilə İran arasında Azad Ticarət Sazişinə də toxunulub. Bu kontekstdə Papoyan vurğulayıb: ”Aİİ-İİR Azad Ticarət Sazişinin qüvvəyə minməsi Aİİ-İran əməkdaşlığı üçün mühüm irəliləyişdir. Bu şəraitdə Ermənistan İran üçün Aİİ-nin geniş vahid bazarına daxil olmaq üçün platformaya çevrilir ki, bu da ikitərəfli RA-IRI gündəliyinin strateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırır”. Həmsöhbətlər ticarət və logistikanın rahat axını, kənd təsərrüfatı məhsullarının təhlükəsiz dövriyyəsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

**V.VƏLİYEV**

# “Fransa müstəmləkəçilik siyasətini davam etdirir”

*Bakı Təşəbbüs Qrupu bəyanat yaydı*

“İyulun 12-də Kanakinin (Yeni Kaledoniya) müstəqillik hərəkatlarının nümayəndələri ilə Fransa hökuməti arasında imzalanmış Bujival razılaşması Yeni Kaledoniyanı müstəmləkə əsarətində saxlamaq xarakteri daşıyır və kanak xalqının müstəqillik mübarizəsinin prinsiplərinə ziddir. Bu fikir bu günlərdə keçirilən, ölkənin əsas müstəqillik hərəkatlarını özündə birləşdirən Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) 45-ci qurultayında səslənib və həmin razılaşma qətiyyətlə rədd edilib. Qurultay iştirakçıları tərəfindən vurğulanıb ki, 1998-ci ildə imzalanmış Numea Sazişi Yeni Kaledoniyanın dekolonizasiyasının əsas hüquqi dayağı kimi təsdiqlənib və Bujival razılaşması Numea sazişinin müddəalarına tamamilə ziddir.”




AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupu (BTQ) bu barədə bəyanat verərək kanak xalqının seçiminə hörmət edəcəyini və dəstəkləyəcəyini bildirib.

Qeyd edək ki, FLNKS ”Kanaky Sazişi” çərçivəsində ölkənin müstəqilliyini elan etməyi nəzərdə tutur. ”Kanaky Sazişi” yol xəritəsi rolunu oynayan və 2025-2030-cu illər arasında Yeni Kaledoniyanın tam suverenliyə hazırlanması üzrə keçid dövrünü ehtiva edən hüquqi bir sənəd olacaq. Bu saziş, həmçinin Fransa ilə müvəqqəti münasibətlərin necə qurulacağını müəyyənləşdirməyi hədəfləyir.

FLNKS-in rəsmi sosial şəbəkə səhifəsində yayılan açıqlamada Bujival razılaşmasının dinc yolla rədd edildiyi və hərəkatın rəmzlərinin qürurla hər yerdə nümayiş etdirilməsinin vacibliyi xüsusi vurğulanıb. Əlavə olaraq, kanaki xalqının birliyinin və qətiyyətinin dəyişməz olaraq qalacağı, onların ortaq gələcəyinin müdafiəsi uğrunda mübarizəni davam etdirəcəkləri bildirilib.

Fransanın dənizaşırı ərazilər üzrə naziri Manuel Valls avqustun 19-23-də Kanakiyə səfər edəcəyini bildirib və Bujival sazişinin redaktə edilməsi üzrə müzakirələrə başlayacağını bəyan edib. Valls qeyd edib ki, bu saziş həyata keçirilməsə, Yeni Kaledoniya siyasi, iqtisadi və sosial böhran təhlükəsi ilə üzləşəcək. Vallsın Bujival sazişinə dair ”alternativ mövcud deyil” bəyanatı isə Yeni Kaledoniyada açıq şəkildə şantaj və təzyiq siyasəti kimi qiymətləndirilib.

Avqustun 21-də Bujival razılaşmasının redaksiya komitəsinin iclası keçiriləcək. İclasda Manuel Vallsın razılaşmanı şərh edəcəyi və əlavə dəyişikliklər təqdim edəcəyi gözlənilir. Bu cəhd kanaki xalqının açıq mövqeyinə baxmayaraq, Fransa tərəfindən sənədin zorla qəbul etdirilməsi siyasətinin davamı kimi qiymətləndirilir. Fransanın atdığı bu son addımlar beynəlxalq hüququn prinsiplərinə tam zidd olub, qəbuledilməz müstəmləkəçilik siyasətinin davamı kimi qiymətləndirilməlidir. Beynəlxalq hüququn fundamental prinsipləri və BMT-nin qətnamələri açıq şəkildə tələb edir ki, kanaki xalqının gələcəyi heç bir güzəşt və ya saxta razılaşma ilə deyil, yalnız tam müstəqilliklə təmin olunsun.

# İnternet asılılığı gənclərin sosial münasibətlərini zəiflədir

*PSİXOLOQ ŞƏRH ETDİ*



”İnternet asılılığı bu günün ən aktual psixoloji və sosial problemlərindən biri kimi qiymətləndirilir. Xüsusilə də gənclər arasında internetdən həddindən artıq istifadə sosial münasibətlərin keyfiyyətinə ciddi təsir göstərir. Psixoloqların fikrincə, bu asılılıq real həyatda ünsiyyətin zəifləməsinə, münasibətlərin dərinliyinin itirilməsinə və gənclərin sosial bacarıqlarının zəif inkişaf etməsinə gətirib çıxara bilər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, internet asılılığına meylli gənclər zaman keçdikcə dostları və ailə üzvləri ilə ünsiyyət qurmaqda maraqsız olurlar. Onlar daha çox virtual mühitdə vaxt keçirməyə üstünlük verir və real sosial münasibətləri ikinci plana atırlar: ”Bu vəziyyət tədricən gənclərin sosial təcrid olunmasına, özünəqapanmasına və emosional problemlərin yaranmasına səbəb olur. Digər tərəfdən, internetdən həddən artıq istifadə empati bacarığını zəiflədir. Gənclər qarşı tərəfi dinləmək, onun hisslərini anlamaq, üz-üzə ünsiyyət zamanı öz fikirlərini ifadə etməkdə çətinlik çəkirlər. Bu isə onların gələcəkdə ailə və peşə həyatında sağlam münasibətlər qurmasına mənfi təsir göstərə bilər. Psixoloqlar qeyd edirlər ki, internetdən balanslı istifadə bu problemin qarşısını almağın əsas yoludur. İnternet gənclərə həm təhsil, həm də ünsiyyət baxımından fayda verə bilər. Lakin bu istifadənin sərhədsiz və nəzarətsiz olması sosial münasibətlərin zəifləməsinə və gənclərin həyat keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Valideynlərin dəstəyi, sağlam ailə ünsiyyəti və gənclərin real sosial fəaliyyətlərə cəlb edilməsi bu asılılığın qarşısını almaqda mühüm rol oynayır.

Beləliklə, internet asılılığı yalnız fərdi psixoloji problem deyil, həm də gənclərin sosial münasibətlərinə, gələcək həyat bacarıqlarına və cəmiyyətə inteqrasiyasına təsir edən vacib bir amildir. Bu səbəbdən də hər bir gəncin internetdən düzgün istifadə etməyi öyrənməsi və balansı qoruması vacib hesab olunur”.

***Ziya Hikmətoğlu***



**MƏTLƏB**

Metlebsalahov@mail.ru

# Bahalı məzar daşı cənnətə aparmır!

***Bu dünyada hər kəsin bir axirət günü var. İnsan doğulduğu kimi, Allahın ona bəxş etdiyi ömrü yaşayıb başa vurub bu dünyadan köçür. Ən maraqlısı odur ki, insanın dünyadan köçməsi, torpağa tapşırılması və ona qoyulan baş daşları məsələsində bütün dünya bir yana, bizim məmləkət bir yana durur. Bu məsələdə də heç kim bizə bənzəyə bilmir. Ağızları açıq qalıb izləyirlər bizi. Son illər Azərbaycanın sosial şəbəkə seqmentində ən çox reklam olunan, insanların gözünə ”mazol” edilən mövzulardan biri də bahalı məzarlıqlar, onların reklam edilməsidir: Bəli, artıq neçə əsrlərdir ki, bizim ölkəmizdə İslam dininin qaydalarına tam zidd olaraq bahalı ehsan məclisləri, bahalı, gözəgəlimli məzar daşlarının hazırlanması ifrat həddə çatdırılıb.***

Bu, ilk növbədə ölkəmizdə İslam dini ilə bağlı maariflənmə səviyyəsinin olduqca aşağı olması, cəmiyyətin əsrlər boyu kiflənmiş stereotiplərin təsirindən çıxa bilməməsi və ən əsası da ”qonşudan dala qalmamaq” kimi cəfəng ictimai adətlə bağlıdır. Bu insanlar heç cür anlamırlar ki, rəhmətə gedən şəxs üçün bahalı məzar daşları hazırlamaqla onların cənnətə getməsi üçün əsas yaratmırlar. Heç bir bahalı məzar daşı heç kimi cənnətə aparmır.

Son vaxtlar hətta bir sıra tanınmış şəxslər üçün 25-30 min manatlıq məzar daşlarının sosial şəbəkələrdə reklam edilməsi əcaib və biabırçı vəziyyətin kritik həddə olduğunu göstərir: ”Bir müddət bundan öncə rəhmətə gedən bir neçə keçmiş məmur üçün bu cür məzarlıqlar hazırlandı. Hətta ortabab bir müğənni də rəhmətə gedən atası üçün 40 min manatlıq məzar daşı hazırlatması ilə özünü bir müddət eninə-boyuna reklam etdi. İllərdir Azərbaycan cəmiyyətində ölüsü düşən ailələr bir ictimai təzyiq altındadırlar. Kim ölüsü üçün gen-bol ehsan verməsə, ölüsünə bahalı məzar daşı hazırlamasa stereotip adətlər üzündən qınaq obyekti olur. Ölü yiyəsi də o üzdən, imkanı olmadığı halda kreditə, borca düşüb həm dəbdəbəli ehsan verir, həm də bahalı məzar daşı hazırlatdırır. Niyə? - Bu iyrənc, oturuşmuş zərərli ictimai baxış üzündən. Bu vəziyyətdə rəhmətə gedən qalır bir kənarda, yazıq ölü yiyəsi borcxərci ödəmək üçün illərlə çalışıb əziyyət çəkməli olur. Belə islam qaydalarımı var, bu cür biabırçılıqla kimin atası-anası cənnətə ”viza” alır? Məncə, cəmiyyətin üfunət iyi verən bu stereotiplərdən qurtulması vacibdən vacibdir. Standart, sadə məzar daşlarının hazırlanması həm dəyərlərimizə hörmət, həm də gələcək nəsillərimizə buraxacağımız ən yaxşı nümunə ola bilər.

İnternet əsrində cənnətə getmək üçün fırıldaqçılara 7 min manat ənam verənləri, ölüsünə 25-30 min manatlıq başdaşı qoyduranları, məzarlıq başında şəhərcik yaradıb ora internet çəkdirənləri, məzar başında bahalı çılçıraqlar və son dəb oturacaqlar quraşdıranları, ”dini toy” adı ilə cibini pullarla dolduranları, tort kəsib ətrafında dövrə vurub mahnı oxuyanları gördən sonra cəmiyyətimizin dini maariflənmədən çox-çox geri qaldığını görmək ürək ağrıdan mənzərədir. Bilirsiniz ən dəhşətlisi hansıdır? Hətta bunu səviyyəsiz efirlərdə milyonarla insanın qarşısında deməkdən utanmırlar. Sanki fəxr edilesi, rəhmətə gedən atası üçün əsl övladlıq edirmiş kimi qürrələnəsi iş görüblər. Ay düşüncəsiz insan, axı sağlığında qara qəpik qiymət qoymadığın atana ən bahalı mərmərdən baş daşı qoymaqla ölmüş dədənimi ”qiymətə mindirirsən”, yoxsa sadəcə özünə reklam qazanırsan? Axı bu cahil və gerizəkalı imic sənin nəyinə gərəkdir? Bu savadsız gədə-güdə yığını trilyard dollar cah-cəlal sahibi olan Səudiyyə şahzadəsinin yarım metrlik sadə ağ daşdan olan məzarını heç görüblərmi? Türkiyəli məşhur milyarderlərin, böyük sənət adamlarının məzarlarını necə, görüb seyr ediblərmi? Əlbəttə, bəzilərinin rüşvətlə, onun-bunun haqqını yeməklə milyonlar yığmaqdan,bir çoxlarının da sosial şəbəkələrdə macəra axtarmaqdan başları ayılarsa, dünyada olub- keçənlərdən xəbərdar olarlar.

Məncə, standart məzarlıq daşlarının qanun halına salınması uzun illərdir ki, cəmiyyətdə kök salan xoşagəlməz streotiplərin tarixə qovuşmasına, israfçı ehsanlıqların yığışdırılmasına və ən əsas da insanların sosial bərabərsizlikdən çəkdikləri əziyyətlərin sona çatmasına kömək edə bilər. Gerçək reallıq odur ki, rəhmətə gedən şəxs o dünyaya öz əməllərinin hesabatını aparır, bahalı məzar daşlarının hesabını deyil...

# “Azərbaycan Prezidenti sülhün qarantı olduğunu Vaşinqton görüşündə bir daha təsdiqlədi”

## Komitə sədri şərh etdi

***Vaşinqtonda keçirilən görüşlər, imzalanan birgə bəyannamə, strateji tərəfdaşlığa dair qəbul olunan sənədlər Azərbaycan - Amerika münasibətlərində yeni, parlaq bir mərhələnin əsasıdır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, bu, həm də Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü uzaqgörən siyasətin, diplomatik gedişlərin bir nəticəsidir.***

”Azərbaycan və Ermənistan arasında imzalanan birgə bəyannamə və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın bilavasitə bu sənədə imza etməsi, şahidlik etməsi ölkəmizin rəhbərinə göstərilən böyük etimadın və onun sülh, əmin-amanlıq siyasətinə verilən qiymətin bir nəticəsi, bariz nümunəsidir. Bu sənədlər əlbəttə ki, dövlətimizin milli maraqlarına tamamilə uyğundur və təhlükəsizliyin, toxunulmazlığın təmin olunmasına, həm də gələcək inkişafa yönəldilmişdir. Ölkələrin sərhədlərinin toxunulmazlığı, təhlükəsizlik məsələləri, müstəqilliyə, suverenliyə hörmət, bir çox vacib məsələlərin, xüsusilə, Zəngəzur dəhlizinin Tramp körpüsü nəqliyyat dəhlizi adlandırılması və nəqliyyat strukturunun genişləndirilməsi ilə əlaqədar məsələlərin bu bəyannamədə yer alması hər iki ölkənin, eləcə də region dövlətlərinin inkişafına, əməkdaşlığın genişləndirilməsinə yeni bir töhfə olacaq.





Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi cənab İlham Əliyevin ilk gündən başlıca vəzifəsi kimi qarşıya qoyulmuş və Azərbaycan Prezidenti bütün hallarda ölkəsinin təhlükəsizliyini, xalqın xoşbəxtliyini təmin etmək üçün vasitələrə əl atmış, özünün sülhsevər mövqeyini ortaya qoymuşdur. Bu sənəddə də bu ideyalar aydın əks olunur, eləcə də görüşlərdə Azərbaycan Prezidentinin səsləndirdiyi ifadələrdə dostlüq, qardaşlıq, əmin-amanlıq məsələləri ön planda olmuşdur. Təsadüfi də deyil ki, ATƏT-in Minsk Qrupu artıq tarixin arxivinə düşdü, çünki həmin qurumun məhz qeyd olunan idayelarla bağlı heç bir fəaliyyət göstərməməsi, ümimiyyətlə, fəaliyyətsizliyi fonunda bu, tamamilə məntiqidir. Məhz belə bir fəaliyyətsiz qurumun artıq keçmişdə qalması özü də bir tarixi uğurdur.

Donald Trampın irəli sürdüyü təşəbbüs həm də iki ölkə arasında sülhün, əmin-amanlığın yaradılmasına, inkişifına verilən zəmanət, həm də dünyaya, dünya ölkələrinə bir mesajdır. Dünyada sülh, azadlıq, demokratiya, insan haqları bərpa edilmədən heç bir inkişafa, tərəqqiyə nail olmaq mümkün deyil. Cənab Prezident bütün mötəbər tribunalardan, eləcə də Vaşinqton görüşlərində bunu bir daha səsləndirdi və sülhün tərəfdarı olduğunu sübut etdi. Bu qürurvericidir və ölkəmizin rəhbərinin, Azərbaycan diplomatiyasının bir uğuru olaraq tarixə yazıldı.

Əlbəttə ki, sülhün, əmin-amanlığın, uzun sürən münaqişənin aradan qaldırılması Azərbaycanın gələcək inkişafına öz töhvəsini verəcək və haqlarımızın, insanlarımızın xoşbəxt yaşaması, dünyada sülhün, əmin-amanlığın bərpa edilməsi, bəşəriyyət üçün bir dəyərdir. Azərbaycan Prezidenti öz əməlləri ilə, öz fikirləri ilə, düşüncələri ilə bunu dünyaya sübut etdi və sülhün qarantı olduğunu bir daha Vaşinqton görüşündə təsdiqləmiş oldu”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “Rusiya və Ukrayna razılaşmaya yaxındır”

## ŞƏRH EDİLDİ



”Tramp hələ Alyaska görüşündən sonra demişdi ki, qəti və real addımlar atmaq lazımdır ki, tezliklə Ukraynadakı müharibə dayandırılsın. Tramp, Zelenski və Avropa liderlərinin görüşündə yadda qalan hadisələrdən biri o oldu ki, ilk dəfə olaraq Ağ Evə Avropa liderləri gəlmişdilər. Tramp da bu halın ilk dəfə baş verdiyini xüsusi qeyd etmişdi”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Şakir Ağayev deyib.

Onun sözlərinə görə, əsas diqqətçəkən məqam isə Rusiya və Ukrayna arasında münaqişənin bitməsi üçün ciddi fikir birliyinin yaranması oldu. Yəni tərəflər, az da olsa, razılığa gəldilər: ”Əsas məsələ budur ki, bu razılaşma hələlik sözdədir, amma nəticəyə yönəlmiş addımlar atılır. Bu günə qədər Putin və Zelenskinin görüşü mümkün deyildi. Zelenski Putinlə görüşməyə qadağa qoymuşdu, Putin isə Zelenskini prezident kimi qəbul etmədiyi üçün görüşmək istəmirdi. Lakin artıq bu görüşə razılıq verildi. Bu, liderlərin görüşü və sonradan ABŞ, Rusiya və Ukrayna prezidentlərinin bir masa arxasında toplaşması üçün ilk real addım hesab olunur.

Baxmayaraq ki, Makron Avropa Birliyinin iştirakı məsələsini irəli sürdü, onun təklifi cavabsız qaldı. Beləliklə, Avropa Rusiya-Ukrayna müharibəsinin həllində masadan kənarda qalır və yalnız təhlükəsizlik məsələlərində iştirak edə bilər.

Digər mühüm məqam isə indiyə qədər Avropa Birliyi, Ukrayna, hətta ABŞ da ”əvvəl atəşkəs, sonra danışıqlar” prinsipini müdafiə edirdi. Lakin Tramp açıq şəkildə bildirdi ki, heç bir atəşkəs söhbəti olmamalıdır - müharibə aparılıb və indi birbaşa sülh danışıqları başlanmalıdır. Atəşkəs terminini Rusiya heç cür qəbul etmirdi, buna görə də Tramp bu məsələni gündəmdən çıxardı. Bu, Tramp və Putin arasında olan danışıqların əsas mövzularından biri idi.

İndiyə qədər Ukrayna tərəfi 1991-ci il sərhədlərinə qayıtmaq şərtini irəli sürürdü. Amma artıq Zelenski torpaq müharibəsinə hazır olduğunu göstərdi. Hətta Tramp qəti şəkildə dedi ki, ümumiyyətlə Ukrayna Krımın adını belə çəkməməlidir. Maraqlıdır ki, dünənki görüşdə bütün Avropa Birliyi rəhbərliyi, əsas aparıcı Avropa dövlətləri və hətta Aİ-yə daxil olmayan Böyük Britaniya belə ümumi razılığa gəldilər. Burada əsas məsələ Ukraynanın NATO-ya daxil olmaması idi - bu, Rusiyanın şərtlərindən biri idi və bu şərtə də razılıq verildi. Təhlükəsizlik təminatlarının artırılması üzərində işlərin artıq başladığını Zelenski özü də təsdiqlədi.

Ümid edək ki, 3 ildən artıq davam edən, hər iki tərəfdən çoxlu tələfat və dağıntılara səbəb olan bu müharibəyə son qoyulacaq. Ən böyük itkiləri təbii ki, Ukrayna verib. Münaqişənin bitməsi həm Ukrayna, həm də Rusiya üçün zəruridir. Bu proses Trampın seçki öncəsi verdiyi əsas vədlərdən birinin reallaşması olacaq və onun siyasi uğuru kimi qiymətləndiriləcək. Dünənki proses göstərdi ki, ABŞ bu məsələdə qətidir. Əgər Ukrayna tərəfi bu razılaşmanı pozarsa, ABŞ yalnız silah yardımı dayandırmaqla kifayətlənməyəcək, hətta kəşfiyyat məlumatlarının ötürülməsini də dayandıraraq Kiyevi danışıqları davam etdirməyə məcbur edə bilər”.

***Günel Fərzəliyeva***

# “Rusiyada azərbaycanlılara qarşı təzyiqlər millətçilik və dini ayrıseçkilik nümunəsidir”



“Rusiyada azərbaycanlılara qarşı aparılan təzyiq kampaniyaları və diskriminasiya halları yalnız fərdi zorakılıq və sosial gərginlik kimi qiymətləndirilməməlidir. Son illərdə müəyyən hallarda azərbaycanlı icmasına qarşı sistemli təzyiqlərin müşahidə olunması həm milli, həm də dini ayrıseçkilik elementlərini ortaya qoyur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Polad Mehdiyev deyib.Onun sözlərinə görə, bu tendensiyalar sadəcə sosial stereotiplərin təsiri deyil, eyni zamanda millətçilik və islamofobiya ilə əlaqədar ideoloji motivlər daşıyır və insanların fundamental hüquqlarının pozulması kimi qiymətləndirilə bilər: ”Belə proseslər cəmiyyətlərarası münasibətlərdə gərginliyin artmasına, diaspor icmalarının özünü təcrid etməsinə və sosial inteqrasiyanın zəifləməsinə səbəb olur. Azərbaycanlılar Rusiyada iqtisadi və sosial fəaliyyət göstərmək istəsələr də, bəzən milli və dini mənsubiyyətlərinə görə diskriminasiyaya məruz qalırlar.

Bu, yalnız fərdi zorakılıq deyil, müəyyən hallarda sistemli yanaşmanın nəticəsi kimi görünür. Bunun beynəlxalq hüquqi və siyasi aspektləri də mövcuddur. Milli və dini ayrıseçkilik hallarına qarşı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş normalar və konvensiyalar var. Rusiyada azərbaycanlılara qarşı təzyiqlərin sistemli xarakter alması, dövlət və cəmiyyət səviyyəsində ciddi qiymətləndirilərək adekvat diplomatik və hüquqi tədbirlərin görülməsini tələb edir.Bu halları Hitlerin ideyalarına bənzətmək mümkündür. Hitlerin dövründə etnik və dini ayrıseçkilik ideologiyası dövlət səviyyəsində dəstəklənirdi. Hazırkı vəziyyət birbaşa həmin dövr ilə müqayisə edilməsə də, müəyyən simvolik oxşarlıqlar - millətçilik və dini düşmənçilik motivləri aydın görünür. Belə halların qarşısını almaq üçün beynəlxalq hüquqi mexanizmlərdən istifadə edilməli, dövlətlərarası dialoq və diplomatik tədbirlər gücləndirilməlidir. Azərbaycan hökuməti və diaspor təşkilatları məsələni diqqətdə saxlamalı, hüquqi və diplomatik yollarla öz vətəndaşlarının təhlükəsizliyini təmin etməlidir. Bu, həm də Rusiyada yaşayan digər etnik və dini qruplar üçün precedens rolunu oynaya bilər”.

***Z. Hikmətoğlu***

# Allergiya: qidadan, geyimdən, havadan...

## Mövsümi xəstəlik olan allergik səpmələr ən çox balacaları hədələyir

***Yaz-yay aylarında allergik xəstəliklərin tüğyan eləməsinin səbəbləri çoxdur. Ağacların çiçəklənməsi, tözlanması, günəşin qızmarı da bəzi sağlamlıq problemləri yarada bilir. Allergiyası olan insanlar adətən yaz aylarında astma simptomları, burunun tutulması, asqırma, öskürmə, göz qaşınması kimi problemlər yaşayırlar.***



Bəzi insanlar zərərli olmayan maddələrə qarşı daha çox həssas olub, həddindən artıq reaksiya göstərir. Allergen deyilən bu maddələr immunitet sistemimizlə təmas edəndə zərərli olmadığı halda bədən ona qarşı böyük miqdarda qoruyucu maddə yaradır. Bu vəziyyətə allergiya deyilir.

Havanın çirklənməsi tənəffüs yollarına birbaşa təsir edən ən mühüm ekoloji risklərdən biridir. İşlənmiş qazlar, sənaye obyektlərindən buraxılan qazlar və tozlu hava astma tutmalarını şiddətləndirir, allergik reaksiyalara məruz qoyur. İqlim dəyişikliyinin allergik insanların sağlamlığına təsir etdiyi artıq bütün dünyada qəbul edilən vəziyyətdir. İqlim dəyişikliyi polen allergiyalarının çoxalmasının birbaşa səbəbidir. İqlimdəki dəyişikliklər rinit və astma kimi allergik xəstəliklərə ciddi təsir edir. Daha həssas olanlar isə uşaqlar, yaşlılar və astma, rinit kimi xəstəliklərdən əziyyət çəkənlərdir.



Habelə, istixana qazları astma və xroniki obstruktiv ağciyər xəstəliyi olan insanlarda tənəffüs problemləri yaradır, həmçinin vaxtından əvvəl ölümə və ağciyər funksiyasının zamanla itirilməsinə səbəb olur. Daşqın və şiddətli tufanlar nəticəsində binalar nəm çəkir, nəticədə kif əmələ gəlir. Bu da öz növbəsində allergik reaksiyalara səbəb olmaqdan əlavə, digər ağciyər xəstəliklərinə yol açır.



Allergik orqanizmlər qat-qat həssas olur. Bəzi insanlar allergik xəstəlikləri ağır keçirirlər. Uşaqlar bu xəstəliyə daha çox tutulan yaş qisminə aiddir. Allergik xəstələr daha çox anadangəlmə bu cür olsa da onlardan bəzisi gələcəkdə orqanizmini narahat edən maddələrə qarşı immunitet yarada bilir. Amma bir çox insan həyatının sonuna qədər bədənində problem yaradan maddələri ehtiva edən qidalar qəbul edə bilmir. Ətrafımızda anadangəlmə çiyələyə, güllərə, sitrus meyvələrinə, toz dənəciklərinə, yun paltarlara, hətta çörəyə belə allergiyası olan kifayət qədər uşaq var.

Məlumat üçün qeyd edək ki, hazırda insanların ən az 30 faizində allergik xərtəlik var. Allergiya genetik səbəblərə bağlı xəstəlikdir. Lakin tez-tez özünü büruzə verməsində ekoloji faktorların da təsiri çoxdur. Nə qədər çox allergik reaksiyalara məruz qalınsa allergik xəstəliklər də bir o qədər çox peyda olur. Bundan əlavə, mövsümlərin qeyri-normal keçməsi də allergiyanın ortaya çıxmasında əhəmiyyətli rol oynayır. Ekoloji problemlər indi hər mövsümə xarakterik allergik xəstəliklər də yaradıb.

Toz dənəcikləri, gözlə görülməyəcək qədər kiçik böcəklər, plastik tullantılar, kimyəvi təmizləmə vasitələri, ətirlər, ev heyvanların tükləri, günəş, kif göbələkləri, parazitlər, çirkli atmosfer, tullantılardan hazırlanmış ucuz paltarlar allergik xəstəlikləri meydana çıxaran əsas amillərdir. Bunlardan əlavə, bəzi "fast-food"ların tərkibindəkli kimyəvi elementlər, uşaq krakerləri və suxarılarının tərkibinə vurulmuş kimyəvi ədvalar, meyvə şirəsi kimi təqdim edilən rəngli sular, geni dəyişdirilmiş məhsullar, mövsümündən əvvəl yetişdirilən meyvələr də allergik problemlərə səbəb ola bilər.

Allergik xəstəliklər insan həyatını məhdudlaşdırır və həmin şəxsin işdəki, sosial həyatdakı performansına böyük təsir göstərir. Allergiya hətta ani ölümlə nəticələnə bilən təhlükəli bir xəstəlik kimi də xarakterizə edilir. Hər xəstəliyin əlaməti fərqlidir. Eyni allergik xəstəliklərdə rastlanan əlamətlər fərqli ola bilər, bu fərdə görə dəyişə bilir.

Erkən diaqnoz xəstəliyin müalicəsi və irəliləməsinin qarşısının alınması üçün çox əhəmiyyətlidir. Allergik xəstəliklərin təyini o qədər də çətin deyil. Bəzi zamanlar adi allergiyanı təhlükəli xəstəliyin əlaməti hesab edən həkimlər pasiyentin ağır yoluxucu xəstəlikdən əziyyət çəkdiyi qənaətinə də gəlirlər. Amma allergik səpkilərin səbəbinin dəqiq öyrənilməsi üçün pasiyentin bir neçə yüngül təhlil və test etdirməsi kifayətdir.

Pediatr Elnarə Quliyeva deyir ki, yaz və yay aylarında uşaqlar arasında ən çox rast gəlinən xəstəliklər allergik xəstəliklərdir: "Buna səbəb ağacların yaşıllaşması, dolayısı ilə tozlanma prosesinin başlanmasıdır. Nəticədə uşaqlarda daha çox dərinin və tənəffüs sistemlərinin allergik xəstəliklərinə rast gəlirik. Xəstəliyin qarşısını almaq üçün tədbirlər görürük, lazımlı müalicə təyin edirik. Amma qeyd etmək lazımdır ki, mövsümü xəstəliklərdə boldur və onların da qarşısı müxtəlif yollarla alınır. Ötən qış uşaqlar arasında kəskin respirator virus infeksiyalarının sayı artmışdı. Səbəb qışın qeyri-normal keçməsi və qarın yağmamasıdır. Amma indi ölkəmizdə uşaqlar arasında təhlükəli xəstəlik yoxdur".

Qeyd edək ki, valideynlərin əksəriyyəti övladında məxmərək xəstəliyinin əlamətlərinə bənzər səpkilər aşkarladığını iddia edir. Amma səpkilər olan uşaqlardan analiz götürülərək həm ölkədaxili, həm də ölkədənkənar referens laboratoriyaya göndərib. Müsahibimiz bildirir ki, səpkilərin böyük əksəriyyəti allergiyalardan bağlıdır. Amma səpən uşalqraın arasında qızılca olanlara da rast gəlinib.

Allergiyanın qarşısını almaq üçün əvvəlcə allergiyaya səbəb olan faktorları aradan qaldırmaq lazımdır. Bunun üçün uşaqlar üçün yun, heyvan tükü ehtiva edən yastıq və yorğanlar istifadə edilməməlidir. Tüklü oyuncaqlar yığışdırılmalıdır. Ev tozundan, görünməyən mikroblardan xilas olmaq üçün isə uşağın geyimlərinin gündəlik, yataq örtülərinin həftədə bir dəfə ən az 60 dərəcə isidilmiş suda yumaq lazımdır. Əgər allergiyanın səbəbi kifdirsə, otağının nəmi azaldılmalıdır. Poletilen əşyalara allergiyası olanlar isə təbii vasitələrlə təmasda olmalıdır. Quru və küləkli havalar da toza qarşı allergiyası olanlar üçün risk faktorudur. Günəşli havada çölə çıxan uşaqlara eynək və günlüyü olan papaq geydirmək vacibdir.

***Lalə Mehralı***

---



**Elçin Bayramlı**

# Ərzaq təhlükəsi(zliyi)

***Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun inkişafı vacibdir. Xüsusilə də, aqrar sektorda perspektivli sahələrinin inkişafının ümumi daxili məhsulda və dövlət büdcəsinin gəlirlərində mühüm rol oynaya biləcəyi aydın məsələdir.***

Aqrar sektorda əsas vacib sahə, ilk növbədə, ərzaq istehsalı ilə bağlıdır. Xüsusən də, taxılçılıq, heyvandarlıq, kartof, meyvə-tərəvəz, balıqçılıq, üzümçülük və s. kənd təsərrüfatı sahələrinə dövlət dəstəyinin göstərilməsi vacibdir. Bu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Üstəlik, bu sahədən yaxşı gəlir də əldə etmək olar.

Son illərdə dövlətin bu sahəyə böyük investisiyalar qoyduğu, müxtəlif dövlət proqramları vasitəsilə güzəştlər tətbiq etdiyi müşahidə olunur. Lakin hələlik, əldə olunan nəticəni qənaətbəxş adlandırmaq olmaz. Faktiki olaraq, əhalinin ərzağa olan tələbatının təxminən yarısı idxal hesabına ödənilir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına baxanda məlum olur ki, son illərdə ölkəyə ərzaq məhsullarının idxalında davamlı artım var. Bu, o deməkdir ki, daxili istehsal azalır. Nəticədə, yerli bazarda əsas tələbat mallarının qiyməti əhalisinin gəlirləri bizdən 5-10 dəfə yüksək olan ölkələrdəki ilə eynidir, bəzi hallarda daha bahadır.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma mümkün olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, Rusiya, ABŞ, Belarus və Türkiyədə, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun, hətta bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və antiinhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə ərzaq qıtlığı və bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlimi, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Kənd Təsərrüfatı Nazirliyi hər il bol məhsul haqda proqnoz verməklə və sonradan bunun baş verməməsinin günahını iqlim proseslərinin üzərinə atmaqdansa, vaxtında strateji aqrar proqramlar hazırlanıb yerinə yetirsə, daha məqsədəuyğun olardı.

Qəribəsi odur ki, ölkə özünü meyvə-tərəvəzlə artıqlaması ilə təmin edir, lakin bazarlar bu məhsulların xarici analoqları- genetik modifikasiya olunmuş məhsullarla doldurulub. Belə məhsullar yerli məhsullardan xeyli ucuz satılır. Yerli meyvə-tərəvəz bazarlarda baha satılsa da, bundan kəndli yox, alverçilər qazanır.

Kəndli məhsulunu min bir əziyyətlə əkib-biçəndən sonra onu ucuz qiymətə alverçilərə verməyə məcbur olur. Çünki hərdən təşkil olunan və az sayda fermerin iştirak etdiyi yarmarkaları nəzərə almasaq, onların öz məhsulunu sərbəst satması üçün lazımi şərait yaradılmayıb. Bu səbəbdən də, hər hansı bir məhsulu kəndlidən 20-30 qəpiyə alan möhtəkirlər onu ən azı 1 manata satırlar. Belədə, iki tərəf uduzur- alıcılar və fermer özü. Bir tərəf də udur ki, bunlar da möhtəkirlərdir. Bu prosesdən qazanan daha bir tərəf isə xaricdən ərzaq idxal edənlərdir.

Dövlət başçısının ölkə iqtisadiyyatının diversifikasiya edilməsi haqda hökumətin üzərinə qoyduğu vəzifələr düzgün yerinə yetirilsə, həm neftdən sonrakı dövr üçün böyük və gəlirli istehsal sahələri yaradılmış olar, həm də əhalimiz xaricdən gətirilən mənşəyi dəqiq aydın olmayan keyfiyyətsiz ərzaq məhsullarından azad olub, öz torpağımızın təbii və təmiz məhsulu ilə qidalanmış olar.

BAXIŞ BUCAĞI

# Rusiyanın qonşuları silahlanır

## Çinli mühəndislər tullanan pilotsuz təyyarələr və peyk əleyhinə silahlar nümayiş etdirirlər

***Yaxın gələcəkdə bir çox ölkələrin hökumətləri Ukrayna münaqişəsi təcrübəsini nəzərə alaraq hərbi büdcələrinə əhəmiyyətli dərəcədə yenidən baxmalı olacaqlar. Müdafiə narahatlıqları yeni şəraitdə effektivliyi şübhə doğuran ötən əsrin bahalı silahlarının istehsalını artırmaq istərdi. 21-ci əsrin münaqişələrində tank, artilleriya, kəşfiyyat və aviasiyanın rolları əhəmiyyətli dərəcədə dəyişdi. Bu gün uğur sürətli tərəqqi və dəyişiklik mərhələsində olan yeni silahlar və texnologiyalarla təmin edilir. Çin laboratoriyalarında, məsələn, "atılan" pilotsuz uçuş aparatları, yeni zenit və peyk əleyhinə silahlar üzərində iş gedir. Çinlilər silahlarını peyk naviqasiyasını sıxışdırmaq və sənaye binalarında uzun mənzilli raketləri uğurla kamuflyaj etmək üçün uyğunlaşdırırlar. Amerika ordusu hesab edir ki, Ukrayna Avropa ölkələri üçün əsas hərbi texnika tədarükçüsünə çevrilmədir. Beləliklə, AB-nin 800 milyard avroluq yeni hərbi büdcəsinin tamamilə Köhnə Avropanın köhnə müdafiə qayğılarına getməsi ehtimalı azdır.***

Ukraynada silahlı toqquşmalara son qoymaq üçün aparılan danışıqlar o demək deyil ki, hökumətlər hərbi texnikaya tələbatı azalda bilər. Əksinə, bu gün dünyada əslində silahlanma yarışının yeni mərhələsi başlayır. 2025-ci ilin mayında Avropa İttifaqı 150 milyard avro dəyərində Aİ-nin Hərbiləşdirmə Fondunun (SAFE) yaradılmasını təsdiqləyib. Bu, Aİ-nin 2030-cu ilə qədər 800 milyard avroluq daha geniş hərbi tikinti proqramının ilk hissəsidir.





Ötən bazar günü ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Metyu Uitaker bildirib ki, Ukrayna artan müdafiə xərcləri fonunda Avropa ölkələri üçün əsas hərbi texnika tədarükçüsü olmalıdır. Amerikalıların bu cür gözləntiləri başa düşüləndir, çünki bu gün havada, dənizdə və bəlkə də yerdə pilotsuz nəqliyyat vasitələrinin üstünlük təşkil etdiyi yeni şəraitdə döyüş əməliyyatlarının aparılmasında unikal təcrübəyə malik olan Ukrayna hərbçiləridir. "Ukrayna, şübhəsiz ki, Avropaya hərbi texnikanın əsas tədarükçüsü olacaq, çünki Avropa ölkələri hamının razılaşdığı ÜDM-in 5%-ni müdafiəyə xərcləyəcək", - Uitaker bildirib. Ukrayna hərbçiləri hazırda təkbaşına yeni hərbi texnikanın borclanması, surətinin çıxarılması və inkişafı imkanlarını nümayiş etdirir. Söhbət təkcə Çin aqrodronu, mülki pilotsuz uçan aparatlarından istifadədən deyil, həm də "Starlink" peyk kommunikasiyalarının inteqrasiyasından və ya IDEX 2025 sərgisindəki yeni Əmirlik-Britaniya raketlərinə çox oxşar olan 3000 km mənzilli uzaqmənzilli qanadlı raketlərin istehsalının ötürülməsindən gedir. Bu gün təkcə Ukraynada deyil, həm də Avropa İttifaqı və Çində yeni münaqişə şərtlərinə hazırlıq gedir. "Çinli alimlər Ukraynadakı müharibənin dərslərini öyrənir və Çin Xalq Azadlıq Ordusunun (PLA) pilotsuz uçan aparatlarının modernləşdirilməsini təklif edirlər. Bu barədə South China Morning Post (SCMP, Çinin Alibaba Group şirkətinə məxsusdur) xəbər verir. Xüsusilə ÇXR-də onlar müasir havadan müdafiənin əhəmiyyətini əhəmiyyətli dərəcədə artıra biləcək hallər təklif edirlər. Pilotsuz təyyarələr hazırda müasir hava hücumundan müdafiə vasitələrinə qarşı həssasdır, lakin bir qrup Çin aerokosmik mühəndis və müdafiə tədqiqatçısı döyüş qabiliyyətini təxminən 90%-ə qədər artıra biləcək radikal texnoloji təkmilləşdirmə təklif ediblər. tətil", SCMP izah edir. Bu "terminaldan yayınma" sistemi dronlara hətta ən mürəkkəb raketlərin belə izləyə bilmədiyi kəskin, gözlənilməz kurs dəyişiklikləri etməyə imkan verdi. Çin müdafiə araşdırma jurnalı iddia edir ki, belə tullanan dronların sağ qalma qabiliyyəti əhəmiyyətli dərəcədə yaxşılaşaraq 87%-i keçib.

Elektron müharibə üçün yeni müdafiə büdcələrində əlavə maliyyə də ayrılacaq. "2022-ci ildə Rusiya mülki naviqasiya sistemlərini tıxanmağa başlayıb. Lakin iki həftədən az müddətdə naviqasiya siqnallarını ötürmək üçün hərbi lentlər də hədəfə alınıb. Müharibə zonasındakı hər bir peyk naviqasiya sistemi, o cümlədən ABŞ-ın GPS, Avropanın Galileo, Çinin Beidou və hətta Rusiyanın QLONASS-ı hədəfə alınıb. Çin alimlərinin hesabatına görə, ABŞ başda olmaqla Qərb dövlətləri dərhal tıxaclara qarşı mübarizəyə başlayıblar. Bəzi analitiklər bunu böyük hərbi güclər arasında ilk böyük elektron müharibə döyüşü kimi təsvir ediblər. Lakin çinli ekspertlər unikal təcrübə əldə edə bildilər" SCMP qeyd edir. Nəşr xatırladır ki, elektron müharibənin əhəmiyyəti Hindistan və Pakistan arasında son hava münaqişələri ilə nümayiş etdirildi, burada nisbətən yeni Çin J-10 qırıcısı Beidou peyk naviqasiyasından istifadə edən elektron bələdçilik sistemi sayəsində ən azı bir fransız Rafale qırıcısını vurub.

Silahlanma yarışının yeni istiqaməti həm də peyk əleyhinə silah kimi istifadə oluna bilən kosmik tullantılarla mübarizə ola bilər. "Çinli elm adamları kosmosda istifadə üçün buraxılış qurğusunu - təhlükəli tullantıları çıxarmaq üçün nəzərdə tutulmuş, lakin silah kimi də istifadə edilə bilən qurğunu təqdim ediblər. Yeni cihaz Nankinq, Şanxay və Şenyandakı aerokosmik mühəndislər tərəfindən birgə işlənib hazırlanıb. Bu barədə Çinin ekspertlər tərəfindən nəzərdən keçirilən Acta Aeronautica et Sinicaica jurnalında təsvir edilib.

Rusiyada mütəxəssislər artilleriya, tank və zirehli texnikanın istifadəsi üçün yeni şərtləri də qeydə alırlar. Düşmən pilotsuz təyyarələrinə təsirli cavab vermədən bütün ənənəvi silahlar düşmənin yerləşdiyi yerdən onlarla kilometr məsafədə asan hədəfə çevrilir. Atış məsafəsi ilə bağlı bu yeni məhdudiyyət ötən əsrin texnologiyasından istifadə şərtlərini dəyişir.




Mütəxəssislərimiz hesab edirlər ki, silahların hazırlanmasında başqa bir yenilik döyüş bölgəsini təcrid etmək üçün batalyon səviyyəsindən bölmələrin yer və hava dronları ilə maksimum doyması olmalıdır. "Əgər biz təkcə taktiki səviyyədə deyil, həm də operativ-taktiki və hətta əməliyyat dərinliyində problemləri həll etməyə qadir olan cihazları kütləvi istehsal edə bilsək, o zaman batalyondan diviziya səviyyəsinə qədər olan bölmələr nəinki kəndi ələ keçirə, həm də lazımi məsafədə öz döyüş zonasını müstəqil şəkildə təcrid edə biləcəklər", - deyə Mərkəzin direktoru Aleksey Çadanik Uşku izah edir. Onun sözlərinə görə, zəruri texnologiyaların əsas sinfi xərclərin azaldılması texnologiyası və "kütləviləşdirmə, kiçikdən orta və böyük seriyalara sürətli çıxış" texnologiyasıdır. Rusiya Müdafiə Nazirliyinin yeni texnoloji çağırışlara cavab verməyə hazır olub-olmaması yaxın gələcəkdə göstəriləcək.



**V.VƏLİYEV**

# Azad Laçın!

## 26 Avqust - Laçın Şəhəri Günüdür

***26 avqust - azad, abad Laçının Şəhəri Günüdür, qürur günüdür. Azərbaycanın tarixi və strateji əhəmiyyətə malik bölgələrindən biri olan Laçın rayonu, 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Bu işğal nəticəsində yüzlərlə günahsız insan qətlə yetirilmiş, minlərlə laçınlı doğma yurd-yuvasından didərgin düşərək, uzun illər boyu Vətən həsrəti ilə yaşamışdır.***

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu bir sıra əraziləri işğaldan azad etdi. Bu müharibənin nəticəsi olaraq, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli bəyanata əsasən, Laçın rayonu 2020-ci il dekabrın 1-də Azərbaycana təhvil verildi. Lakin Laçın şəhərinin tam nəzarətə götürülməsi 2022-ci il avqustun 26-da baş tutdu. Həmin gün Azərbaycan Ordusu Laçın şəhərinə daxil olaraq, Zabux və Sus kəndlərini də nəzarətə götürdü. Prezident İlham Əliyev bu tarixi hadisəni "X" sosial şəbəkəsində elan edərək, bütün Laçınlıları və Azərbaycan xalqını təbrik etdi .Bu əlamətdar hadisənin xatirəsinə, Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamına əsasən, hər il 26 avqust tarixi "Laçın Şəhəri Günü" kimi qeyd olunur.

İşğal dövründə Laçın şəhəri və ətraf kəndlər ciddi dağıntılara məruz qalmış, infrastruktur və mədəniyyət obyektləri məhv edilmişdir. Azadlıqdan sonra isə şəhərin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərə start verildi. "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Laçın şəhərində yaşayış evləri, məktəblər, xəstəxanalar və digər sosial obyektlər inşa olunur. "15 dəqiqəlik şəhər" prinsipi əsasında planlaşdırılan Laçın, sakinlərin gündəlik ehtiyaclarını yaxın məsafədə qarşılaya biləcəyi bir şəhər modelinə çevrilir.










2023-cü ilin may ayından etibarən Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı başlanmışdır. Artıq 534 ailə, yəni 1971 nəfər Laçında daimi məskunlaşıb. 2024-cü ilin 26 avqustunda Laçın Şəhəri Günü təntənəli şəkildə qeyd edildi. Mədəniyyət Nazirliyi, Azərbaycan Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı və "Bakı Abadlıq Xidməti" MMC-nin dəstəyi ilə bayram tədbirləri keçirildi. Bayramın açılış mərasimi Laçın bayraq meydanında baş tutdu, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi və Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri tərəfindən vətənpərvərlik ruhlu musiqilər ifa olundu.

Laçın Şəhəri Günü, yalnız bir şəhərin azad olunmasının deyil, həm də Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasının simvoludur. Bu gün, həmçinin, məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının və bölgənin yenidən dirçəlişinin təntənəsidir.

Bəli, bu qələbə, bu uğur güclü ordumuzun və mərd və əyilməz xalqımızın birliyi, gücü nəticəsində əldə olunub. Çünki Azərbaycan xalqı Liderinə inanır və 30 il davam edən torpaq həsrətinə məhz xalqımızın inandığı Qaolib Lider, Ali Baş Komandan Prezident İlham Əliyev "Dəmir Yumruq" siyasəti ilə Güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin igidliyi ilə düz 44 gündə son qoydu. Çünki Prezident İlham Əliyev nəyi, nə vaxt və necə etməyi özü bilir və yüksək tribunalardan, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, nəyi, nə vaxt və necə etməyi özü bili: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm".

Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Prezident indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib, bu sözünə də əməl edəcəkdir. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi. Beləliklə, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir.

II Vətən müharibəsi tariximizin parlaq səhifələrini təşkil edir. Bu parlaqlığı çox məqamlar xarakterizə edir. Dövlət-xalq birliyi, həmrəylik, vətənpərvərlik, torpaq sevgisi, bayraq sevdası, ölümün üzünə dik baxmaq əzmi və sair. Lakin biz nəsil üçün daha önəmli olan bir məqam da var ki, 30 illik Qarabağ yaralarını sağaldan həkimlər məhz biz nəslin övladlarıdır. 30 ildə sağalmaq bilməyən, qanı süzən, qaysaq bağlamayan yaraları 30 il əvvəl o acı günlərin hər birinin canlı şahidi olanların övladları sarıdı. Bu yaraların üstünə öz qanlarını məlhəm edib çəkdilər. 30 ilin yaraları 44 gündə sağaldı.

Bu yaraları sağaldanlar həm də torpaqlarımızın nisgildən kor olan gözlərinə məlhəm oldular. Torpaq canlandı, özünə gəldi, bayrağına, insanına, yurddaşına qovuşdu. Onların - o həkimlərin, o şəhidlərin hesabına. Qürur duyduğumuz, qarşılarında əbədiyyən baş əydiyimiz igid oğullarımızın hesabına geri alındı yurd yerlərimiz. Onlar öz gənc ömürlərini torpağın azadlığına, milli mənliyin xilasına, bir də ata-babalarının torpaq təşnəsinə qurban verib bizi torpaqlı, elli, yurdlu etdilər. Üzərimizdən qaçqınlığı, köçkünlüyü götürdülər. Və tarix durduqca Qarabağın şahinlərinə, yaraların təbibinə çevrildilər. Laçına da qələbə cığırlarını o igidlər açdılar. Ruhunuz şad olsun, Vətən oğulları!

**Mətləb**

# İnsan fani olaraq yaradılmışdır: 125 illik ömür məhdudiyyəti

*Alimlər: Telomerlərin qısalmasına görə insan ömrünün maksimum həddi 125 ildir*

ELMİ FAKT

**İnsan 125 ildən çox yaşaya bilməz. Bu, fəlsəfi mübahisə deyil, bioloji faktdır. Tarixdə heç bir uzunömürlü insan bu xətti keçməmişdir. Səbəb xəstəliklərdə və ya bədbəxt hadisələrdə deyil, hüceyrələrdə - illəri deyil, bölünmələri sayan xüsusi sayğacda gizlənir.**

## Fikirləri dəyişdirən təcrübə

1961-ci ildə Leonard Heyflik ilk dəfə insan hüceyrələrinin sonsuz bölünmədiyini göstərdi. Yaraların sağalmasına cavabdeh olan fibroblastlar 50-52 bölünmədən sonra dayandı. Bu "Heyflik həddi" qocalma elminin əsası oldu.

## Telomerlərin rolu

Xromosomların uclarında telomerlər - ayaqqabı bağlarının ucları kimi- DNT-nin qoruyucu hissələri var. Hər bölünmə ilə onlar qısalır. Telomerlər çox qısaldıqda, hüceyrə özünü məhvetmə proqramına - apoptoza başlayır.

## Proqramlaşdırılmış bir proses kimi yaşlanma

Biz yaşlanmağın köhnəlmək olduğunu düşünməyə öyrəşmişik. Əslində bunlar mərhələlərdir:

Gənclik - aktiv bölmə.

Yetkinlik - səhvlərin yığılması.

Yaşlılıq - bölünmələrin dayandırılması və apoptoza başlaması.

Hüceyrə təsadüfən yox, mutasiyaların və xərçəngin qarşısını almaq üçün daxili əmrlə ölür.



## Niyə onlar ölümsüz deyillər?

Xərçəng hüceyrələri bu mexanizmdən yan keçməyi bilir- onlar telomeraz fermentini aktivləşdirir və "ölməz" olurlar. Ancaq normal hüceyrələrdə telomeraz pozulur: bu, bioproqramın regenerasiya və təhlükəsizlik arasında bir tarazlıq seçdiyini göstərir.

## 125 illik məhdudiyyət

Demoqrafik tədqiqatlar 1990-cı illərdən bəri maksimum ölüm yaşının artmadığını təsdiqləyir. 125-ə qədər yaşamaq ehtimalı 0,01%-dən azdır. Bu, orqanizmin yaradılış proqramında qurulmuş bir hədddir.

## Təbiəti aldada bilərikmi?

Genetik mühəndislik, telomeraz, orqan klonlaşdırılması- bunların heç biri ömrü 125 ildən o yana uzada bilməz. Və sual yaranır: buna dəyərmi? Ölümsüzlük (ifrat uzunömürlülük) təkcə üstünlüklər deyil, həm də təhlükələr gətirər- mutasiyalardan tutmuş psixi pozğunluqlara qədər.

Biz çatışmazlıqlara görə deyil, yeni nəsillərə yer açan proqram sayəsində ölümlüyük. Heyflik həddi səhv deyil, inkişafın şərtidir. Və bizim vəzifəmiz daha çox deyil, daha düzgünyaşamaqdır.

## Aydınlaşdırma

Telomerlər (qədim yunan dilindən τέλος - son və μέρος - hissə) xromosomların son hissələridir. Xromosomların telomerik bölgələri digər xromosomlarla və ya onların fraqmentləri ilə əlaqə qurmaq və qoruyucu funksiyanı yerinə yetirmək qabiliyyətinin olmaması ilə xarakterizə olunur.

**Elçin Bayramlı**

# Alimenti ancaq ata ödəməlidir?

*Hüquqşünas mühüm məqamlara aydınlıq gətirdi*

***"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 75-ci maddəsində deyilir ki, Valideynlər uşaqlarını saxlamağa borcludurlar. Aliment ödənilməsi barədə valideynlər arasında saziş olmadıqda, valideynlər (onlardan biri) uşaqları saxlamadıqda və məhkəməyə bu barədə iddia verilmədikdə müvafiq icra hakimiyyəti orqanı yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment tutulması barədə valideynlərə (onlardan birinə) qarşı iddia qaldırmaq hüququna malikdir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib. Fariz Əkbərov sözlərinə belə davam edib: "Ailə Məcəlləsinin 76-cı maddəsinə əsasən uşaqlar üçün məhkəmə qaydasında tutulan alimentin miqdarı:***





- Aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər

ay aşağıdakı miqdarda aliment tutulur:

- 1 uşağa görə-qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi; 2 uşağa görə-qazancın

(başqa gəlirlərin) üçdə bir hissəsi;

- 3 və daha çox uşağa görə-qazancın (başqa gəlirlərin) yarısı.

- Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Ailə Məcəlləsinin 78-ci maddəsində göstərilir ki, uşaqların saxlanılması üçün alimentin sabit pul məbləğində tutulması:

- Valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin və ya marağının əhəmiyyətli dərəcədə pozulduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda həm sabit pul məbləğində, həm də bu Məcəllənin 76-cı maddəsinə uyğun olaraq qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər.

- Sabit pul məbləğinin miqdarı məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas tutularaq müəyyən edilir.

- Tərəflərdən hər biri ilə uşaq qalıbsa, bir valideyndən az təminatlı digər valideynin xeyrinə hər ay tutulan alimentin miqdarı bu Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq məhkəmə tərəfindən sabit pul məbləğində müəyyən edilir.

Həmin şəxs alimenti ödəməkdən imtina edərsə, İcra Haqqında Qanunun 43-cü maddəsinə əsasən ilk növbədə tələb onun əmlakına yönəldilir. Yəni, şəxsin adına hər hansı bir daşınar və ya daşınmaz əmlak varsa, onun üzərinə həbs qoyulur. İlkin olaraq üzərinə həbs qoyulmuş əmlak borc məbləğinə uyğun olaraq alimentin yerinə tələbkara təqdim edilir. Tələbkar əmlakı qəbul etməkdən imtina etdiyi təqdirdə isə həmin əmlak hərracda satılır və əldə olunmuş vəsait alimentin əvəzinə tələbkara verilir.

Şəxsin aliment pulunun yönəldilə biləcəyi əmlakı olmadıqda isə icra məmuru praktikaya əsasən, şəxs barəsində inzibati xəta haqqında protokol tərtib edərək onun Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilməsi məsələsinə baxılmasını məhkəmədən xahiş edir. Əgər məhkəmə şəxsi bu maddəyə əsasən təqsirli bilərsə, onda şəxs 500 manatdan 1000 manatadək cərimə və yaxud 10 gündən 30 günədək inzibati həbs oluna bilər.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsi ilə şəxs məsuliyyətə o halda cəlb oluna bilər ki, o icra məmurunun qanuni tələblərinə əməl etməsin. Misal üçün aliment ödəməli olan şəxs icra məmurunun çağırışlarına gəlməsin və yaxud icra məmurundan əmlakını bilə-bilə gizlətsin və s.

Həmçinin aliment ödəməyən şəxsin borcu əhəmiyyətli dərəcədə olduqda (adətən 1000 manatdan yuxarı) icra məmuru onun ölkədən getmək hüququnun məhdudlaşdırılması haqqında məhkəməyə müraciət edə bilər və nəticədə məhkəmə borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması haqqında qərar qəbul edə bilər.

Yekunda əgər bütün məcburi icra tədbirləri fayda verməzsə, aliment ödəməli olan şəxs barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306.1-ci maddəsi ilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında Ədliyyə Nazirliyinin İstintaq İdarəsinə təqdimat verilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 306.1-ci maddəsi qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini qərəzli olaraq icra etməməyə görə şəxs aşağıda göstərilmiş formalarda cinayət məsuliyyəinə cəlb edilə və cəzalandırıla bilər:

1) 2000 manatdan 4000 manatadək miqdarda cərimə

2) 320 saatdan dörd 480 saatadək ictimai işlər

3) 2 ilədək müddətə islah işləri

4) 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması

5) 3 ilədək müddətə azadlıqdan məhrumetmə".

**Ayşən Vəli**

# İnsan ekosistemi necə məhv edir?

**İnsan həyatı, heyvanların həyatı, ətraf mühit - ümumiyyətlə, canlı-cansız aləm birləşərək bir zəncir yaradır. Ekosistemdə yaşamaq üçün bir-birinə ehtiyac duyan müxtəlif həyat tərzləri və canlı növləri var. Əgər zənciri təşkil edən halqaların birində qırılma varsa, bundan bütün sistem zərər görür. Təbiət müxtəlif tarazlıqlara əsaslanır və insanlarla ətraf mühit arasındakı əlaqə təbiətin ən böyük tarazlıqlarından biridir.**

Ekosistem, canlıların və onları əhatə edən cansız mühitin kontaktı nəticəsində formalaşır. Ekosistem davamlı ekoloji sistemdir və təbii mühitimiz də ekosistemin bir hissəsidir. Təbii mühit, insan əli ilə yaradılmayan və özbaşına meydana gələn mühitdir. Ekosistem, heyvanların və ya bitkilərin hava, torpaq və ya günəşlə olan təmasından yaranır. Biz insanlar bu tarazlıqda doğulduğumuz üçün, əslində, necə mükəmməl bir sistemlə əhatə olunduğumuzu dərk etməyə bilərik. Halbuki qurulan bu tarazlıq əslində təbiət möcüzələrinin ən böyük sübutudur.

Ekosistemi təşkil edən halqalar da özlüyündə iki hissəyə bölünür - quru ekosistemi və su ekosistemi. Quru ekosisteminə meşələr, dağlar, düzənliklər, dərələr, mağaralar və s. kimi yerlər daxildir. Su ekosistemi isə duzlu və ya şirin sudan ibarət ekosistemlərə verilən addır. Məsələn, dənizlər, bataqlıqlar, okeanlar və çaylar su ekosistemlərinə nümunədir. Hətta kiçik bir gölməçə də su ekosistemidir. Su ekosistemlərinə suda yaşayan canlılar, həşərat sürfələri, ilbizlər, qurdlar, bakteriyalar, müxtəlif növ göbələklər və oxşar canlılar daxildir.

















Ekosistemlər çox böyük bölgələri əhatə edir. Ekosistemlərdəki canlı və ya cansız olmasından asılı olmayaraq hər bir varlığın vəzifə və məsuliyyəti var. Əgər ekosistemdə hər hansı bir canlı növünün nəsli tükənirsə tarazlıq tamamilə pozula bilər. Canlılar ekosistemin vacib hissələridir, lakin hər canlı hər ekosistemdə yaşaya bilməz. Canlının bir ekosistemdə yaşaması üçün onun xüsusiyyətlərinin həmin ekosistemlə tam uyğun olması lazımdır.

Qeyd etdiyimiz kimi, təbiətin özü tarazlığa əsaslanır. Ekosistemin pozulması ətraf mühitin strukturuna və fəaliyyətinə birbaşa təsir göstərir. Əgər ekosistemdəki tarazlıq pozularsa dünya coğrafiyasında dəyişikliklər baş verir. Çünki ekosistemin əsas elementləri iqlim, torpaq, hava, bitki və heyvan kimi faktorlardır. Ekosistemdə baş verən problem bu faktorlara birbaşa təsir edəcək.

Torpağın su və küləklə yer dəyişdirməsi və ya ətraf ərazilərdə bitki örtüyünün azalması müəyyən dərəcədə eroziyaya səbəb olur. Ekosistem pozularsa, eroziyalar baş verə bilər. Bundan əlavə, əgər ekosistem pozularsa, su ehtiyatları azala bilər. Suyun çirklənməsi və quruması nəticəsində ətraf mühitdə istifadəyə yararlı suyun miqdarı azalır və bununla da bütün tarazlıq pozulur. Ekosistemdə müşahidə edilən problemlərin mənfi təsirini canlılar üzərində müşahidə edirik. Ekosistemdə fiziki və ya kimyəvi şəraitdə baş verən dəyişikliklər canlıların sağ qalmasına birbaşa təsir göstərir. Bəziləri pozulan tarazlığa uyğunlaşa bilsə də, bəziləri bu dəyişikliyə tab gətirə bilmir və nəsli tükənir.



Ekosistem canlıların gözlənilməz ölümü, təbii fəlakətlər və ya insandan qaynaqlanan səbəblər nəticəsində pozula bilər. Məsələn, Vyetnam müharibəsi zamanı yamyaşıl meşələrin bombalanması bir çox canlının yaşayış yerlərinin itirilməsinə səbəb oldu. Eləcə də müxtəlif ölkələrdə baş verən meşə yanğınları da minlərlə canlının məhvinə gətirib çıxardı. O cümlədən, sənayenin inkişafı adı ilə ağacların və bitki örtüyünün məhv edilməsi, torpaqlardan istifadə üsulunun zərərli olması, asfaltlanmış ərazilərin genişləndirilməsi ekosistemə böyük ziyan vurur. Bütün bunlar təkcə torpağın ekologiyasına deyil, həm də su balansına təsir göstərir. Urbanizasiya ilə əlaqədar olaraq, şəhər əhalisini və sənayesini təmin etmək üçün daha çox suya ehtiyac duyulur, bu da daha dərin quyuların qazılmasına və ya suyun daha uzaq yerlərdən daşınmasına və beləcə yer altının aşınmasına səbəb olur.

Şəhər əhalisinin əhatə dairəsinin artırılması bitki örtüyünün azalması deməkdir, bu isə bitkilərin atmosferə buraxdığı su buxarının miqdarının azalması deməkdir. Bundan əlavə, yeraltı suların çirklənməsi şəhər yollarında buzları əritmək üçün istifadə edilən duzun drenaj sisteminə axması ilə baş verir.

İnsan əli ilə təbiətin necə məhv edildiyini görə bilmək üçün dünyanın istənilən nöqtəsinə baxmaq kifayətdir. Son 1000 il ərzində insanların torpağa, suya və havaya təsiri, meşələrin qırılması, torpaqların asfaltlaşdırılması, yanğınlar törədilməsi təbiətə bərpası mümkün olmayan zərərlər vurub. Bu cür problemlər, son illər dünyada əhali artımı və urbanizasiya ilə kulminasiya nöqtəsinə çatdı.

İnsanların yaratdığı istixana qazları və buna bağlı olaraq baş verən iqlim dəyişikliyi, bitki örtüyü, orqanizmlər və heyvanlar üzərində təsiri nəticəsində sağ qalmaq uğrunda amansız mübarizə gedir. Əfsus ki, bir çox insanlar ekoloji tarazlığın həyatımızda oynadığı əhəmiyyəti bilmir, bir plastik butulkanın və ya bir polietilen torbanın torpaqda 1000 il ərimədiyindən xəbərsizdir. Biz bu gün yaşamaq üçün təbiəti məhv edirik, lakin unuduruq ki sabah yaşamaq üçün normal ekologiya olmayacaq.

Dünyanı ekoloji cəhətdən daha təmiz saxlamaq mümkündür. Bunun üçün bütün dünya əhalisi ən azı primitiv ekoloji savadlılığa yiyələnməlidir. Məsələn, kanalizasiya suları və kənd təsərrüfatı suları göllərdə və çaylarda uzun müddət qalarsa yosunların artmasına səbəb olur, lakin bu yosunların böyüməsinin günəş işığının qarşısını aldığını, suda oksigeni azaltdığını, gölməçədə yaşayan su canlılarını öldürdüyünü çoxumuz bilmirik. Yaxud, həddindən artıq balıq ovu sudakı biomüxtəlifliyin itməsinə, bəzi balıq növlərinin kürü tökmədən ovlanması nəslinin kəsilməsinə səbəb olur. Həmçinin, kənd təsərrüfatı sahəsində istifadə edilən gübrələrin həddindən artıq olması torpağa və suya nə qədər zərər verir, əksər fermer bunun fərqində deyil. Yuyunarkən, qab yuyarkən axıtdığımız içməli suyun hər damlası bəşəriyyət üçün hansı dəyərər sahibdir, bunu da bilmirik. Elektrik enerjisindən istifadə edərkən qənaət etməməyimiz ekologiyaya necə zərər verir, fərqində deyilik.

1927-1987-ci illər arasında Yer kürəsinin əhalisi 5 milyarda yüksəldi. 1999-cu ildə ümumi əhalinin sayı 6 milyarda çatdı və 2050-ci ildə Yer kürəsində təxminən 9 milyard insanın yaşayacağı təxmin edilir. Lakin bu rəqəmin 2050-ci ilədək 9 milyard yox, daha çox olacağı barədə ehtimallar da var. Bunu belə təsəvvür edin: kiçik bir akvariumda həddindən artıq çox balıq saxlamaq akvariumunuzu çirkləndirə, balansı poza bildiyi kimi, planetdə çoxlu insan da ekoloji tarazlığı poza bilər. Su ehtiyatı insan sayına adekvat deyil, bu səbəbdən də təbii su qaynaqlarını mühavizə etməli, içməli suyun hər damlasının qayğısına qalmalıyıq.

Unutmayaq, ekoloji tarazlıq zərifdir və Yerin ekosistemləri insan təzyiqi səbəbi ilə zəifləyib. Ekoloji tarazlığı qorumaqla biz öz gələcəyimizi qarant altına almış oluruq. İnsanlar daha çox təkrar emal etməklə, daha az su və elektrik enerjisindən istifadə etməklə və vəhşi təbiətə daha hörmətlə davranmaqla Yer planetinin ömrünü uzada bilər. Bütöv ekoloji tarazlıq planetə heç bir müdaxilə olmadıqda əldə edilir. Bu o deməkdir ki, hər bir orqanizm yaşamaq və çoxalmaq üçün kifayət qədər resurslara malik olmalıdır. İnsanın yaşamaq, qidalanmaq kimi ehtiyacları var, lakin digər canlıların da bu ehtiyacını düşünmək lazımdır. Biz həm özümüz, həm də gələcək nəsillər üçün planetimizi sağlam saxlayan tarazlığı qorumaq üçün birlikdə işləməliyik. Hərəmiz öz sahəmizdə bu tarazlığı qorusaq dünya daha dözümlü olacaq.

***Lalə Mehralı***

# Rusiya -Ukrayna müharibəsi 2030-cu ilə qədər davam edəcək

## Keçirilən görüşlər, səslənən bəyanatlar Vladimi Putinin məqsəd və hədəflərindən yayındıra bilməyəcək

ABŞ Prezidenti Donald Trampla Rusiya president Vladimir Putin arasında Alyaskanın Ankoriç şəhərində keçirilən görüş müharibənin dayandırılmasına zəmin yaratmadı. Çünki görüşdən sonra məlum oldu ki, V. Putinin iddialı tələbləri və şərtləri olduğundan müharibədə atəşkəsin əldə olunması barədə razılığa gəlinməyib. Putinin Alyaskada keçirilən görüşdə Trampdan Ukraynada rus dilinə rəsmi status verilməsi ilə bağlı təminat istəyib. Bundan başqa, o, pravoslav kilsələrinin təhlükəsizliyinin təmin edilməsini şərt olaraq irəli sürüb. Eyni zamanda V.Putinin Ukraynanın NATO -ya üzvlüyünün tamamilə radan qaldırılmasının tələb edib. Ukrayna Konstitusiyanın 10-cu maddəsinə əsasən, Ukraynanın dövlət dili yalnız Ukrayna dilidir. Yəni rus dili ölkə ərazisində heç bir xüsusi statusa malik deyil. Bu isə Putinin tələbinin indidən reallaşmasının qeyri-mümkün olduğunu deməyə əsas verir. Bunla yanaşı danışıqlarda atəşkəsin əldə olunmasında razılıq əldə olunmayıbsa və Zeliniskinin də iştirakı ilə üçtərəfli görüşün baş tutmasına problemlər yaranıbsa, deməli Alyaska görüşü nəticəsiz qalıb. Baxmayraq ki, hər iki tərəf görüşün faydalı olduğunu bidirirlər. Hətta Ankoricdə Rusiya-ABŞ görüşünün yekunları üzrə keçirilən görüşdə V. Putin bildirib ki, ABŞ lideri Donald Trampla Alyaskada baş tutan danışıqlar bizi lazımi qərarlara yaxınlaşdırır. V.Putin iddia edib ki, , səfər vaxtında və çox faydalı olub: "Biz qarşılıqlı fəaliyyətimizin demək olar ki, bütün sahələri haqqında, lakin ilk növbədə, təbii ki, Ukrayna böhranının ədalətli əsaslarla mümkün həllindən danışdıq".

O qeyd edib ki, Trampla görüşdə Rusiyanın Ukraynadakı vəziyyətlə bağlı mövqeyini sakit və əsaslı şəkildə ifadə etmək imkanı olub. "Söhbət çox səmimi, məzmunlu olub və fikrimcə, bu, bizi lazımi qərarlara yaxınlaşdırır" deyə Rusiya prezidenti bildirib.

### Ukrayna sərhəd dəyişikliyini qəbul etməyəcək

Diqqətçəkən məqam ondan ibarətdir ki, Putinlə Tramp arasında Alyaskada baş tutan görüşə Ukrayna prezidenti dəvət olunmayıb. Səbi isə müəmmalı görünsə də, siyasi şərhçilər görüşə Zelinkinin qatılmasını əngəlləyən Putin olub. Rusiya prezident onun sərhəd bilməyən iddialarına qarşı sərt təbki göstərən Zelinkini eyni masada görmək istəməyib. Ancaq bu arada yayılan məlumatlara görə, Tramp Putini üçtərəfli görüşün keçirilməsinə razı salıb. Bu baxımdan da yaxın iki həftə ərzində Putin-Tramp-Zeliniski üçtərəfli görüşünün keçiriləcəyi barədə Kremlə yaxın KİV-lər tərəfindən xəbərlər tirajlanır. Görüşlə bağlı yayılan məlumatları Almaniya Kansleri Fridrix Mertsi də təsdiqləyib və bildirib ki, görüşün yeri hələ müəyyən edilməyib. Fridrix Mertsi belə bir sammitə yaxşı hazırlaşmağın vacibliyini də qeyd edib.

Fransa prezidenti Emmanuel MakronLCI telekanalı tərəfindən yayımlanan müsahibəsində Putinin Ukraynadakı müharibəni bitirməyə hazır olduğuna şübhə ilə yanaşdığını bildisədə görüşlə bağlı fərziyyələrini irəli sürüb. Bildirib ki, Vladimir Zelenski ilə Rusiya prezidenti Vladimir Putin arasında danışıqlar Avropada, xüsusən də Cenevrədə keçirilməlidir: "Bu, fərziyyədən daha çox, hətta kollektiv iradədir. Bu, neytral ölkə olacaq, ona görə də İsveçrə ola bilər, mən Cenevrənin və ya başqa ölkənin tərəfdarıyam. Sonuncu dəfə ikitərəfli müzakirələr İstanbulda olub".

Ağ Ev də D.Tramla -Zeliniski arasında keçirilən növbəti görüşün 6 ay öncə baş tutan görüşdən fərqli olduğunu siyasi şərhçilər də dilə gətirirlər. Yəni bu dəfə ABŞ-ın prezidenti və vitse-prezideti Ağ Evə gələn ali qonağa hörmətsizlik göstərməyiblər. Sadəcə bu dəfə ki, görüş də D.Tamp Ukrayna-Rusiya müharibəsinin dayandırılması üçün Zelinsikiyə özünün və dövlətinin maraqlarını diktə etməyə çalışıb. Zelinski isə bu tələbləri susmaqla cavab verməyə məcbur olub. Çünki hazır ki, məqamda onun başqa çıxış yolu da yoxdur.



Qanlı savaş isə 2030-cu ilə qədər dayanmayacaq. Yalnız Rusiya iqtisadi, siyasi, hərbi cəhətdən çökəcəyi və ya ciddi şəkil də hakimiyyət dəyişikliyi ilə üzləşəcəyi halda müharibə müvəqqəti atəşkəslə əvəzlənə bilər.

D.Trampın sosial mediada yazdığı status diqqəti çəlb edir. ABŞ prezidenti Donald Tramp Ukrayna prezidenti Vladimir Zelenski və Avropa liderləri ilə "yaxşı" görüş keçirdiyini və Rusiya prezidenti Vladimir Putinlə Zelenski arasında görüş, habelə üçtərəfli görüşün təşkili üzərində çalışdığını bildirib. O Ağ Evdə hörmətli qonaqlarla çox yaxşı görüş keçirib: "Ukrayna prezidenti Vladimir Zelenski, Fransa prezidenti Emmanuel Makron, Finlandiya prezidenti Aleksandr Stubb, İtaliyanın baş naziri Giorgia Meloni, Böyük Britaniyanın baş naziri Key Starmer, Avropa Komissiyasının kansleri Ursula fon der Leyen və NATO-nun məxfi görüşündən sonra baş na-

Bununla belə Zelinski Ukraynanın sərhədlərinin dəyişdirilməsi ilə barışmayacaqlarını və bu yöndə irəli sürülən istənilən şərtləri rədd edəcəklərini bildirib. Eyni zamanda

Zelenski Trampa və Avropalı müttəfiqlərinə Ukraynanın NATO-nun xüsusi mexanizmi vasitəsilə aldığı silahlara görə təşəkkür edib.

NATO-nun baş katibi və Avropa ölkələrinin rəhbərlərinin iştirakı ilə keçirilən sammitdən sonra D.Tramp bildirib ki, Ukrayna və Rusiyadan olan əsirlərin mübadiləsi ABŞ-Ukrayna-Rusiya üçtərəfli görüşündən sonra baş tuta bilər. Onun sözlərinə görə, Rusiya Ukrayna üçün təhlükəsizlik zəmanətlərini qəbul edəcək, lakin hələlik tərəfdaşlar "kimin nə edəcəyini" müzakirə etməlidirlər. "Mən bilirəm ki, orada mindən çox məhbus var və bilirəm ki, onları azad edəcəklər... Yəqin ki, onları tezliklə azad edəcəklər - dərhal kimi".

Tramp bildirib ki, Vladimir Putinlə Alyaskada keçirilən sammit onun sülhün "əlçatan" olduğuna inamını gücləndirib. Onun sözlərinə görə, Putin Rusiyanın Ukrayna üçün təhlükəsizlik zəmanətlərini qəbul edəcəyi ilə razılaşaraq "əhəmiyyətli addım" atıb. Bu, Avropa liderlərinin və Ukrayna prezidentinin görüşdə çıxış edəcəyi "əsas məqamlardan" biridir. Tramp əlavə edib ki, onlar "kimin nə edəcəyini" müzakirə edəcəklər.

O, qrupun Ukraynaya qarşı gələcək təcavüzün qarşısını alacaq razılığa gələ biləcəyi ilə bağlı nikbinliyini ifadə edib: "Düşünürəm ki, Avropa ölkələri böyük yükü öz çiyinlərinə götürəcək. Biz onlara kömək edəcəyik". D. Tramp Ukrayna xalqı üçün təhlükə hesab olunan "mümkün ərazi mübadiləsi"dən də danışıb və bildirib ki, gələcək görüşlərdə bu məsələ müzakirə olunacaq.

Ağ Ev də olan NATO-nun baş katibi Mark Rütte və Avropa ölkələrinin rəhbərləri də ərazi dəyişikliyinin qəbuledilməz olduğunu söyləyiblər. NATO-nun Baş katibi Mark Rütte "Fox News"a müsahibəsində bildirib ki, onlar Ukrayna sərhədlərinin yenidən cızılması məsələsini müzakirə etməyiblər: " Bu Ukrayna Prezidenti Volodimir Zelenskinin Rusiyanın da iştirak edəcəyi üçtərəfli görüşdə qaldıracağı məsələdir. Biz bu gün bunu müzakirə etməmişik. Ərazi məsələsinə gəldikdə, Ukrayna Prezidenti bunu üçtərəfli formatda və yəqin ki, bundan sonra Vladimir Putinlə keçiriləcək daha çox danışıqlarda müzakirə etməlidir. Bu gün liderlər arasında anlaşma ondan ibarət oldu ki, hər hansı bir ərazinin müzakirə edilməsi üçün təhlükəsizlik zəmanəti olmalıdır və hər bir ölkə bu təminatların nə demək olduğu barədə razılığa gəlməlidir".



### Üçtərəfli görüşün baş tuta biləcəyi inandırıcı görünmür

ABŞ və Avropa rəsmiləri üçtərəfli görüşün keçiriləcəyinə dair açıqlamalar yayırlar. Lakin arzuedilən görüşün baş tuta biləcəyinə ümidlər azdır. Çünki Rusiya prezident V. Putin hələ müharibənin əvvəlində bəyan etmişdir ki, o heç bir hal da düşmən hesab olunan Zelinski ilə görüşməyəcək. Bunu Türkiyədə baş tutan Rusiya-Ukrayna görüşlərində də təsdiqləmişdir. Baxmayaraq ki, Türkiyə görüşləri öncəsi belə bir məlumatlar yayılmışdır ki, Putin ikitərəfli görüşə qatılacaq. Hətta görüşdə iştirak etmək üçün Zeliniski Türkiyəyə səfər etmişdir. Lakin biz yazarların da proqnozlaşdırdığı kimi Putin görüş yerinə gəlmədi. Bu baxımdan Putin yenə də vədinə əməl etməyəcək. Yenə də D.Tramın və Avropa liderlərinin arzuetdikləri görüşün keçirilməsinə dəstək verməyəcək. Bununla da Putin bir daha dünya birliyi ilə sadəcə görüntü xatirinə görüşlər və danışıqlar apardığını nümayiş etdirəcək. Əslində isə onun məkrli niyyəti və məqsədi dəyişməzdir: Ukraynanı tam şəkildə işğal edib, öz hikkəsini və iddiasını reallaşdırmaqdır. Ən azı Ukrayna itirmiş olduğu torpaqlardan imtina etdiyini bəyan etməklə, təslim olduğunu bəyan edib, ağ bayraq qaldırmalıdır. Ancaq görünən ondan ibarətdir ki. Ukrayna xalqı və onun lideri təhqiredici məğlubiyyəti qəbul etmək fikrində deyillər. Digər tərəfdən Ukrayna xalqı heç bir hal da torpaqlarının işğala etməsi ilə barışmayacaqlar. Bu isə müharibənin davam edəcəyinə işarədir.

zir Rupt. Oval ofis."

Tramp qeyd edib ki, həmin görüşlərdən sonra o Putinə zəng edib: "Bu görüşdən sonra iki liderin və mənim iştirak edəcəyimiz üçtərəfli görüşümüz olacaq. Yenə də demək olar ki, dörd ilə yaxındır davam edən müharibəni bitirmək üçün bu, çox yaxşı, erkən addımdır".

Tramp nəzərdə tutulan görüşün nə vaxt keçiriləcəyini açıqlamayıb, baxmayaraq ki, media Zelenski ilə Putin arasında görüşün avqustun sonunda baş tuta biləcəyini yazır.

ABŞ prezidenti bildirib ki, görüşlərində Ukrayna üçün təhlükəsizlik təminatları müzakirə edilib və bu zəmanətlər "müxtəlif Avropa ölkələri tərəfindən Amerika Birləşmiş Ştatları ilə koordinasiya əsasında təmin olunacaq.

Bütün bunlar onu deməyə əsas verir ki, həqiqətən də ABŞ və Avropa müharibənin dayandırılmasını istəyirlər. Çünki iqtisadi tənəzzül Avropa üçün ağır sosial-iqtisadi problemlər yaradıb. Müharibənin davam etməsi isə problemlərin daha da ağırlaşmasına gətirib çıxarır. Müharibə dayandırılarsa maliyyə yükləmələrdən azad olunmaq imkanı yarana bilər. Lakin V. Putin istər Avropanın, istərsə də ABŞ-ın oyun qaydalarını özünün işğalçı siyasətini davam etdirməklə pozmaqdadır. Bu vəziyyətin nə qədər davam edəcəyini demək çətin olsa da aydın olana bir məsələ Rusiya prezidenti V.Putin əcdadları kimi uşaqları, qocaları, qadınları, ümumilikdə dinc mülki insanları öldürməkdən, şəhərləri, kənd və qəsəbələri xarabazarlığa çevirməkdən zövq alır. Belə bir məxluqa insan demək olarmı, əsla.

***İLHAM ƏLİYEV***

# Körpə baxımında güvənli addım: BAXIM MƏHSULLARI

***Yenidoğulmuş körpələr üçün baxım məhsulları seçərkən xüsusilə diqqətli olmaq lazımdır. Çünki onların dərisi çox nazik, həssas və asanlıqla qıcıqlana biləndir. SİA mövzu ilə bağlı araşdırma aparıb. Alarkən bunlara fikir verməktövsiyə olunur:***



## Diqqət edilməli əsas məqamlar

*Tərkib*

"Paraben", "SLS/SLES", "ftalat", "formaldehid" kimi kimyəvi qatqılardan azad olmasına diqqət edin. Ətir və rəngləyici maddələr minimum olmalıdır (çox vaxt allergiyaya səbəb olur). "Hypoallergenic" (hipoallergen) və "Dermatoloqlar tərəfindən test olunmuşdur" yazılarına üstünlük verin.

*pH balansı*

Körpə dərisi üçün uyğun pH 5.5-dir. Bu, dərinin qoruyucu qatını saxlamağa kömək edir.

## İstifadə sahəsi

Bədən yağı/kremi - dərini qurumadan qorumaq üçün. Şampun və yuyucu gel - gözləri yandırmayan, yumşaq tərkibli olmalıdır. Nəm salfetlər - spirtsiz, qoxusuz və dermatoloji testdən keçmiş. Pudra və ya səpgi kremi - tərləmə və ya bez səpgisinə qarşı.





## Marka seçimi

Tanınmış, körpələr üçün ixtisaslaşmış markalara üstünlük vermək daha təhlükəsizdir.

## Pediatrın məsləhəti

Xüsusilə ilk ayda hər hansı yeni məhsul istifadə etməzdən əvvəl pediatrla məsləhətləşmək yaxşı olar.





## Allergiya testi

Yeni məhsulu ilk dəfə geniş istifadə etməzdən əvvəl körpənin dərisinin kiçik bir hissəsinə sürtün, reaksiyanı izləyin.

Qısa desək sadə, təbii, qoxusuz, kimyəvi qatqısız məhsullara üstünlük vermək lazımdır.

Yenidoğulmuş körpə baxım məhsulları alarkən əlavə diqqət ediləcək məqamlar:

## Yaş məhdudiyyəti

Məhsul üzərində "0+" yazısı olmalıdır, yəni doğuşdan etibarən istifadə üçün uyğundur.

## Qablaşdırma və təhlükəsizlik

Qapaqları möhkəm olmalı, körpə asanlıqla aça bilməməlidir. Pompalı şüşələr daha gigiyenikdir.

## İstifadə rahatlığı

Bir əllə açılıb bağlanması praktikdir, çünki ana çox vaxt körpəni qucağında tutur.

## Saxlama müddəti

Etiketdəki istifadə müddəti (Məsələn, "12M" - açıldıqdan sonra 12 ay istifadə oluna bilər) mütləq nəzərə alınmalıdır.

## Orqanik və ya təbii məhsullar

Aloe vera, çobanyastığı, lavanda kimi yumşaldıcı bitki ekstraktları faydalı ola bilər. Lakin çox bitki qarışığı olan məhsullara da ehtiyatla yanaşmaq lazımdır (həssas dəri reaksiya verə bilər).

## Qoxu məsələsi

Körpələr üçün güclü ətirli məhsullar tövsiyə olunmur, çünki həm allergiya riski yaradır, həm də körpənin öz təbii qoxusunu gizlədir (ana üçün instinktiv önəmlidir).

## Hər şey az olsun, amma keyfiyyətli olsun

İlk aylarda çox məhsula ehtiyac yoxdur. Əsasən: yumşaq şampun/gel, səpgi kremi, nəm salfet və yağı kifayət edir. Beləliklə, həddindən artıq çox məhsul almaq əvəzinə, sadə və əsas olanları seçmək daha faydalıdır. İlk aylarda körpə baxımı üçün onlarla məhsul almağa ehtiyac olmur. Ən çox istifadə edilən əsas məhsullar bunlardır:

## Yenidoğulmuş körpələr üçün ən çox istifadə olunan baxım məhsulları

Uşaq bezləri (pampers) - gündə bir neçə dəfə dəyişdirildiyi üçün ən vacib məhsuldur.

Nəm salfetlər - spirtsiz, qoxusuz və hipoallergen olması şərtdir.

Bezin kremi (səpgi əleyhinə krem) - bez səpgisinin qarşısını almaq üçün.

Körpə yağı və ya nəmləndirici krem - dərinin qurumaması və çatlamaması üçün.

Körpə şampunu və yuyucu gel - gözləri yandırm

ayan, yumşaq formulalı.

Burun aspiratoru və damcılar - selik təmizləmək üçün.

Termometr - hərarəti izləmək üçün.

Uşaq dırnaq qayçısı və ya dırnaq dırnaqtutanı - tez uzanan dırnaqları kəsmək üçün.

Steril pambıq çubuq və quru salfetlər - qulaq ətrafı və bədən təmizliyi üçün.

Qısa desək bez, nəm salfet, səpgi kremi, körpə yağı və yumşaq şampun ilk aylar üçün kifayətdir.

**_Ayşən Vəli_**

# Ukraynanı necə xilas etməli?

*ABŞ-da Avropa liderlərinin iştirakı ilə görüş keçirilib*



Avropa liderləri Ukraynanı Rusiya işğalından xilas etmək üçün Vaşinqtona toplaşıblar. İlkin vəzifə Ukraynada atəşkəsi təmin etmək, daha sonra danışıqlar masasına əyləşmək olsa da bəzi Avropa ölkələri Rusiya ilə yalnız güc dili ilə danışmağın çıxış yolu olduğunu ABŞ prezidentinə sübut etməyə çalışıblar. Avqustun 18-də Ağ Evdə ABŞ və Ukrayna prezidentlərinin, eləcə də Ukraynada müharibənin dayandırılması yollarını müzakirə etmək üçün Vaşinqtona gələn Avropa liderlərinin iştirakı ilə geniş tərkibdə görüş başlayıb. İclas Avropa Komissiyasının sədri, NATO-nun baş katibi, Almaniya kansleri, İtaliyanın baş naziri, Fransa və Finlandiya prezidentləri, Böyük Britaniyanın baş nazirinin iştirakı ilə keçirilib.

İclasda Avropa Komissiyasının sədri Ursula fon der Leyen, NATO-nun baş katibi Mark Rutte, Almaniya kansleri Fridrix Merz, İtaliyanın baş naziri Giorgio Meloni, Fransa prezidenti Emmanuel Makron, Finlandiya prezidenti Aleksandr Stubb, Böyük Britaniyanın baş naziri Key Starmer iştirak edirlər. Tərəflər Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq üçün birgə yanaşma və imkanları müzakirə edirlər. Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp Vladimir Zelenski ilə birgə Oval kabinetdə jurnalistlərlə söhbət edərkən demişdi ki, o, artıq atəşkəsi Rusiya ilə gələcək danışıqlarda zəruri mərhələ hesab etmir.





## Tramp ”böyük irəliləyiş”dən danışır

ABŞ prezidenti Donald Tramp bazar ertəsi bildirib ki, o, Vladimir Putinin müharibəni bitirmək istədiyinə inanır. Bu barədə avqustun 18-də CNN məlumat yayıb. Bu dəfə Oval kabinetdəki ab-hava fevralda keçirilən görüş zamanı burada baş verənlərdən köklü şəkildə fərqlənib. Zelenski çıxışına Trampa çoxsaylı təşəkkürlə başlayıb. Ağ Evin rəhbəri də öz növbəsində Ukrayna prezidentinin kostyumunu yüksək qiymətləndirib. Xüsusilə, Ukrayna dövlətinin başçısı Trampa ”qətlləri dayandırmağa” çalışdığına görə təşəkkür edib və üçtərəfli əməkdaşlığa hazır olduğunu bildirib. Ukrayna prezidenti həmçinin Melaniya Trampın ukraynalı uşaqlarla bağlı məktubu, özü isə Ukraynanın birinci xanımı Yelena Zelenskanın məktubunu ona təqdim etdiyinə görə minnətdarlığını bildirib.

”Bizim müharibəyə son qoymaq üçün yaxşı şansımız var”, deyən Tramp və hətta son həftələrdə çoxlu insanın öldüyünü qeyd edib. ABŞ prezidenti Putinlə görüşü ”yaxşı” adlandırıb və nəticə əldə etmək şansını qeyd edib. Müharibə bitməlidir, Putin, Ukrayna və bütün dünya bunu istəyir, Tramp vurğulayıb. ”Altı ayda mən altı müharibəni dayandırdım. Bunun ən asan olacağını düşündüm, amma belə deyil”, - o etiraf edib.

Eyni zamanda, Zelenski Ukraynanın Rusiyadan gündəlik atəşə məruz qalmağa məcbur olduğunu qeyd edərək, Xarkova gecə hücumuna işarə edib. ”Biz bu müharibəni dayandırmalıyıq, Rusiyanı dayandırmalıyıq. Bizim Amerika və Avropa tərəfdaşlarının dəstəyinə ehtiyacımız var”, - o deyib. ”Biz ABŞ-ın - şəxsən prezident Trampın bu müharibəni dayandırmaq, müharibəni bitirmək üçün diplomatik yol tapmaq ideyasını dəstəklədik”, - prezident əlavə edib.

Lakin dövlət başçısı ərazilərin mübadiləsi ilə bağlı suala birbaşa cavab verməkdən yayınıb. Liderlərin sülh sazişinin şərtlərini ətraflı müzakirə edəcəyi və Ukraynada sülhə nail olmaq üçün gələcək addımları müəyyənləşdirəcəyi gözlənilir. Xatırladaq ki, Ukrayna prezidenti Vladimir Zelenski Vaşinqtona səfərinə ABŞ-ın Ukrayna və Rusiya üzrə xüsusi nümayəndəsi Keyt Kelloqla görüşlə başlayıb. Prezident qeyd edib ki, danışıqlar zamanı Ukraynada cəbhədəki vəziyyət və diplomatik imkanlar müzakirə olunub.

## Ağ Evdə görüş, ilk açıqlamalar

Ağ Evdə Ukrayna prezidenti Vladimir Zelenski ilə ABŞ prezidenti Donald Tramp arasında keçirilən görüşə Avropa liderləri Zelenskiyə bir növ ”dəstək qrupu” kimi qoşulublar. Oval kabinetdə Vladimir Zelenski ilə keçirilən görüşdə media nümayəndələrinə açıqlamasında Tramp deyib ki, o, artıq atəşkəsi Rusiya ilə gələcək danışıqlarda zəruri addım hesab etmir. ”Məncə, atəşkəsə ehtiyac yoxdur. Bu il başa vurduğum altı müharibəyə baxsanız, onlar atəşkəs deyil, müharibələrdir. Bu, yaxşı olardı, amma mənim strateji anlayışım da var”, deyib.

Tramp davam edib ki, belə olan halda tərəflər güc toplayıb və yenidən ”isti” müharibəyə gedəcək. Tramp bildirib ki, Ukrayna üçün təhlükəsizlik təminatları əsas müzakirə mövzularından biri olacaq. ”Kimin nə edəcəyini müzakirə edəcəyik. Mən nikbinəm ki, biz birlikdə Ukraynaya qarşı yeni təcavüzün qarşısını alacaq razılığa gələ bilərik... Düşünürəm ki, Avropa dövlətləri çox işi öz üzərinə götürəcək, biz onlara kömək edəcəyik”, - ABŞ prezidenti bildirib. O, davam edib ki, hazırkı cəbhə xəttini nəzərə alaraq, Ukrayna və Rusiya arasında ”mümkün ərazi mübadiləsi” müzakirə edilməlidir. ”Biz bəlkə də bu həftəsonu üçtərəfli görüşü (ABŞ-Ukrayna-Rusiya formatında) təşkil etməyə çalışacağıq”, - Tramp bildirib.

## Zelenskinin mövqeyi

Vladimir Zelenski prezident Trampla Oval kabinetdə baş tutan ikitərəfli söhbəti yüksək qiymətləndirib və sonuncu onunla razılaşıb. ”Düşünürəm ki, prezident Trampla çox yaxşı söhbətim oldu” deyən Zelenski, bundan sonra Tramp da görüşü ”çox yaxşı” hesab etdiyini ələvə edib. ”Bu, həqiqətən də ən yaxşısı idi. Bağışlayın, bəlkə də ”ən yaxşı” nə vaxtsa olacaq. Amma bu, çox yaxşı idi”, - deyə Ukrayna prezidenti davam edib. ”Biz çox həssas məsələlər haqqında danışdıq. Birincisi, təhlükəsizlik zəmanətləri. Biz təhlükəsizlik zəmanətləri haqqında danışmağa davam edəcəyik və ABŞ-ın belə güclü siqnal göndərməsi və təhlükəsizlik zəmanətlərini verməyə hazır olması çox vacibdir”, - Zelenski bildirib.

## Avropalılar nə deyir?

Danışıqlar başlamazdan əvvəl Tramp və Zelenskinin ardınca Avropa liderləri Ukrayna üçün təhlükəsizlik təminatlarını vurğulayırlar. İtaliyanın baş naziri Giorgia Meloni bildirib ki, tərəflər ilk növbədə Ukrayna üçün təhlükəsizlik təminatlarını, ”əslində İtaliyanın təklifi olan, belə desək, ”Beşinci maddə” təklifini” müzakirə ediblər. NATO Nizamnaməsinin Beşinci Maddəsi məzmunu adətən alyans üzvlərinin onlardan birinə hücumu hamıya hücum kimi qəbul etmə öhdəliyi kimi ümumiləşdirilən bir maddədir.

## Putinə zənglər

Ukrayna prezidenti Vladimir Zelenski və Avropa liderləri ilə danışıqlardan sonra Trampın Kreml lideri Vladimir Putinlə telefon danışığı planlaşdırılıb. ”Mən indicə prezident Putinlə dolayı yolla danışdım və bugünkü görüşlərimizdən dərhal sonra telefon danışığımız olacaq”, - ABŞ prezidenti bildirib. O əlavə edib ki, Ukrayna-Rusiya-ABŞ üçtərəfli sammiti baş tuta da, olmaya da bilər. ”Üçtərəfli görüş olmasa, döyüşlər davam edəcək. Bizim müharibəyə son qoymaq üçün yaxşı şansımız var... Bu görüşləri bitirəndə o, mənim zəngimi gözləyir”, - Tramp bildirib. Tezliklə bir neçə media orqanı - Sky News, CNN, Reuters və Almaniyanın Bild nəşri Trampın Putinə zəng etmək üçün Avropa liderləri ilə görüşünü yarımçıq dayandırdığını yazıblar. Ağ Ev Putinə zəng edilməsi ilə bağlı xəbərləri rəsmi şəkildə şərh etməyib.

## Tramp Zelenskiyə qarşı müharibəyə son qoyur

Ukraynadakı müharibə ”demək olar ki, dərhal” başa çata bilər, lakin bunun prezident Vladimir Zelenskidən asılı olduğu iddia edilir. Bunu ABŞ prezidenti Donald Tramp özünün Truth Social sosial şəbəkəsində yazıb. ”Ukrayna prezidenti Zelenski istəsə, Rusiya ilə müharibəni demək olar ki, dərhal bitirə bilər, ya da döyüşə davam edə bilər. Bunun necə başladığını xatırlayın. Obamanın verdiyi Krımın geri qaytarılması (12 il əvvəl, bir güllə belə atılmadan!) və Ukraynanın NATO-ya qoşulması yoxdur. Bəzi şeylər heç vaxt dəyişməyəcək!”, Tramp yazıb.

## Ağ Evdə ”böyük gün”

”Əvvəllər heç vaxt bu qədər çox Avropa lideri eyni vaxtda burada olmamışdı. Onları qəbul etmək şərəfdir!”, ABŞ prezidenti əlavə edib. Bazar ertəsi səhər saatlarında Zelenskinin Vaşinqtona gəldiyi məlum olub. Trampın əvvəlcə onunla şəxsi görüş keçirib, daha sonra isə danışıqlara Avropa liderləri və NATO baş katibi qatılıb.

ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə Ukrayna prezidenti Vladimir Zelenski arasında görüş təşkil etməyə başladığını bildirib. O, bu barədə çərşənbə axşamı, avqustun 19-na keçən gecə özünün Truth Social sosial şəbəkəsində məlumat verib. ”Görüşlərdən sonra mən prezident Putinə zəng etdim və prezident Putinlə prezident Zelenski arasında konkret yerdə görüş təşkil etməyə başladım. Həmin görüşdən sonra iki prezident arasında, eləcə də mənim üçtərəfli görüşümüz olacaq”, - Tramp yazıb. O qeyd edib ki, bu, dörd ilə yaxındır davam edən müharibənin başa çatması istiqamətində atılmış çox yaxşı ilk addımdır. Tramp həmçinin əlavə edib ki, vitse-prezident J.D.Vens, dövlət katibi Marko Rubio və xüsusi elçi Stiv Vitkoff öz hərəkətlərini Rusiya və Ukrayna ilə əlaqələndirirlər. Bundan əvvəl Kreml Putin və Tramp arasında Ukrayna-Rusiya görüşünün müzakirə olunduğu, lakin bu, dövlət başçıları deyil, nümayəndələr səviyyəsində görüş olduğu barədə məlumat yayıb. Daha əvvəl Zelenski vurğulayıb ki, ərazi mübadiləsi məsələləri yalnız Rusiya prezidenti Vladimir Putin və Trampla Amerika prezidentinin təşkil etmək istədiyi üçtərəfli görüş zamanı liderlər səviyyəsində müzakirə oluna bilər.

**V.VƏLİYEV**

RAKURS

# Şuşanın inciləri: 4 dəfə yenilənən abidə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi "istiqaməti çərçivəsində hazırlanıb*

***Yuxarı Gövhər Ağa Məscidi işğalda olarkən Şuşanın dağıdılan 17 məscidindən biridir. Məscid Şuşanın mərkəzi meydanındadır. Onun inşası 1850-ci ildə Pənahəli xanın tapşırığı ilə başlayıb, amma fasilələrlə tikilib. Xanın qızı Gövhər Ağanın yardımı ilə tikintisi 1883-cü ildə yekunlaşıb deyə məscidə onun adı verilib. İşğal dövründə məscidin daş divarlarınadək hər yeri dağıdılıb, əmlakı yağmalanıb, xarabalıqları altında heyvan saxlanılıb.***







Yuxarı Gövhər ağa məscidi həm də Şuşa cümə məscidi adlanır. Şuşa şəhərinin Mərkəzi meydanında tikilib, məlumatlara görə şəhər ərazisində tikilmiş ən qədim məsciddir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb. Bu məscidin yerində əvvəlcə qamışdan inşa edilmiş məscid olub. 1750-ci illərdə Şuşanın əsası qoyulanda Pənahəli xanın göstərişi ilə şəhər meydanında ilk məscid tikilməli idi, o dövrdə şəhər yeni salındığından daş tikinti üçün vaxt və imkan yox idi, belə olduqda Yuxarı Gövhər Ağa Məscidi nin ilk variantı qamışdan quruldu.

Qamış qədimdən bəri ucuz, asan əldə olunan tikinti materialı olub. Xüsusilə Qarabağ təbiətində qamışın bol olması, hər addımda bitməsi tikintidə istifadəsini də əlçatan edirdi. Əvvəlcə taxta dirəklər torpağa bərkidilir, bəlli bir çərçivə yaradılırdı. Qamış dəstələri şaquli və ya üfüqi şəkildə çərçivəyə hörülürdü. Bəzən iki qat qamış hörülür, arasına gil və ya saman qarışdırılmış palçıq doldurulurdu ki, bina möhkəm olsun. Hörmə prosesindən sonra divarların üzəri palçıq-saman qarışığı ilə suvanırdı. Bu üsulla həm yağışdan qorunurdu, həm də istilik və soyuq izolyasiyası balansı qorunurdu. Dam ya qamışla örtülürdü, ya da taxta və torpaq qarışığından istifadə olunurdu. İlk Yuxarı Gövhər Ağa Məscidi beləcə yarandı.

Qamışdan tikilmiş bu ilk məscid yalnız müvəqqəti ibadətgah funksiyası daşıyırdı, daha geniş imkanları yox idi. 1768–1769-cu illərdə qamış məscidin yerində daşdan yenisi, ikinci məscid tikilir. Çünki Şuşa şəhəri böyüdükcə və möhkəmləndikcə, habelə əhalisi artdıqca daha dözümlü, funksional tikiliyə ehtiyac yaranır. Bu artıq Şuşa şəhərinin mərkəzində yerləşən əsas məscid rolunu oynayırdı. Memarlıq baxımından o dövrün sadə üslubunda qurulmuş, daş divarları, taxta tavanı və geniş ibadət zalı vardı. Məscid camaat üçün daha rahat, uzunömürlü və möhkəm idi. İlk daş məscidin memarlıq detalları barədə tarixi mənbələrdə ətraflı təsvir təəssüf ki yoxdur. Məscid 1768-ci ildə başlansa da inşası yarımçıq qalıb. Sonrakı illərdə (XIX əsrin əvvəllərində və 1883–1885-ci illərdə) məscid bir neçə dəfə yenidən tikilərək bugünkü monumental görünüşünə gətirilib, tam olaraq 1885-ci ildə tamamlanıb istifadəyə verilib. Məscidin ilk daş versiyasının, ümumilikdə ikinci versiyası haqqında ümumi məlumatlar olsa da ölçü, memarlıq üslubu, estetik görünüşü barədə çox ətraflı mənbə yoxdur.

XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa edilir. Məscidin iki minarəli olması, minarələrin məhəlli təbii daş və ya kərpicdən tikilməsi barədə məlumatlar isə rus rəssam və səyyah Vasili Vereşaqin tərəfindən çəkilmiş eskizlərdən əldə edilib. Rəssam məscidin memarlıq-bədii xassələri, minarələrin forması və binanın ümumi görünüşü dəqiq təsvir edir. Bu eskizlərin sayəsində tikilinin konstruktiv quruluşunu, daxili planlaşdırmasını və bəzək elementlərini təxmin etmək olur.



1883-cü ildə yenə Gövhər ağanın maddi vəsaiti əsasında memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən Verşaginin təsvir etdiyi məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilir. Həmin məscid bizim dövrümüzə yaxşı saxlanmış vəziyyətdə çatıb. Lakin Qarabağ müharibəsi zamanı Şuşanın işğalından sonra məscid qismən dağıdılıb, interyeri məhv edilib, minarələrinin dekoru zədələnib və örtükləri dağıdılıb.

İşğaldan azad edildikdən sonra ölkə başçısının göstərişi ilə məscid yenidən təmir edildi, divarlar möhkəmləndirildi, tarixi daş və kərpic divarlar yoxlanıldı, işğal dövründən baxımsızlıqdan yaranan çatlar dolduruldu, zəif sahələr möhkəmləndirildi. İki minarə tamamilə yenidən quruldu, daxili və xarici daş kərpicləri dəyişdirildi, silinmiş, məhv edilmiş dekorativ elementlər orijinal üslubda bərpa olundu. Məscidin dam örtüyü tarixi plan üzrə taxta çərçivəli idi, həmin dam örtüyü yeniləndi, su keçirməyən örtüklərlə qorundu. Həmçinin təməlin bərpası diqqətlə aparıldı, torpaq və rütubət problemləri aradan qaldırıldı.





Məscidin unikal görünüşü qorunub saxlanılmaqla dekorativ elementlər bərpa edildi. Eyvanlar, taxta və daş ornamentlər, pəncərə çərçivələri və qapılar əvvəlki görünüşə uyğun hazırlandı. Mədrəsə elementləri, taxta konstruksiyalar, interyer bəzəkləri olan taxta tavan, sütunlar tamamilə bərpa edildi. Tarixi mənbələrdə qeyd olunan naxış və rənglər orijinal üsluba uyğun olaraq təkrarlandı.

Məscidə təhlükəsiz və müasir elektrik sistemi quraşdırıldı, sistem məscidin tarixi görünüşünə xələl gətirilmədən gizli şəkildə yerləşdirildi, müasir yanğın xəbərdarlığı, təhlükəsizlik kameraları və nəzarət sistemi əlavə olundu. Həmçinin, yağış və qar sularının düzgün axışını təmin etməsi, binaya zərər verməməsi üçün döşəmə və dam sistemləri yenilənib. Məscid Şuşa işğaldan azad edildikdən sonra əsaslı təmiri başa çatdırılaraq 10 may 2023-cü ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən rəsmi olaraq açıldı.

**Lalə Mehralı**

SƏS
20 avqust
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Sürücülük vəsiqəsini dəyişmək üçün hansı sənədlər lazımdır?



***Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) "1 sual - 1 cavab" maarifləndirici rubrikasında vətəndaşların ən çox ünvanladıqları suallardan biri cavablandırılıb. BDYP-nin məlumatında deyilir ki, sual belə olub: "Sürücülük vəsiqəsini dəyişmək üçün hansı sənədlərlə hara müraciət edilməlidir?"***

Rubrikada bu suala mövcud qanunvericilik əsasında rəsmi cavab təqdim olunub. Bildirilib ki, sürücülük vəsiqəsini dəyişmək üçün vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə, eyni zamanda, Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat imtahan şöbəsinə müraciət edə bilərlər. Bunun üçün vətəndaşlara şəxsiyyət və köhnə sürücülük vəsiqələri, dövlət rüsumunun ödənilməsi barədə qəbz və əgər şəxsin yaşı 60 və daha çoxdursa, yaxud gözlə görünə bilən hər hansı fiziki qüsuru varsa, tibbi arayış lazım olur. Qeyd edək ki, "1 sual - 1 cavab" layihəsinin məqsədi hərəkət iştirakçılarının tez-tez verdikləri suallara sadə və aydın cavablar verməklə, onların yol hərəkəti qaydaları barədə məlumatlılığını artırmaqdır.

## Sabunçuda avtomobildən 8 min manatlıq qızıl oğurlanıb



Bakının Sabunçu rayonunda avtoyuma məntəqəsindən avtomobildən 8 min manatlıq qızıl oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Bakıxanov qəsəbə sakininin yumaq məqsədilə avtoyuma məntəqəsinə verdiyi avtomobilindən 8 min manat dəyərində qızıl-zinət əşyası oğurlanıb. Bu barədə zərərçəkmiş polisə müraciət edib.

Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirilə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 26 yaşlı Ə.Namazov saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Ronaldodan sevgilisinə hədiyyə "yağışı" - milyonluq üzük, "Porsche", bahalı saatlar..



Kristiano Ronaldo evlilik təklifi etdiyi Corcina Rodriguezi gözlənilən toy ərəfəsində hədiyyə yağışına tutub. Portuqaliyalı futbolçu sevgilisi üçün dəbdəbəli hədiyyələrə inanılmaz məbləğdə pul xərcləyib. Hər şey bir neçə milyon dollar dəyərində qiymətləndirilən nişan üzüyü ilə başlayıb. Bununla belə, Ronaldo bununla da kifayətlənməyib. İnsayderlərin sözlərinə görə, hədiyyələr siyahısına "Porsche Taycan", bir neçə yüz min dollar dəyərində lüks elektrik avtomobil, "Audemars Piguet" və "Patek Philippe" saatları, "Dior" və "Louis Vuitton" çantaları və lüks əşyalardan ibarət yeni qarderob daxildir.

# Kredit kartı gənclərin həyatında: imkan, yoxsa təhlükə?



"Azərbaycanda insanlar daha yaxşı həyat tərzi yaşamaq üçün kreditlərə meyl edirlər".Bu sözləri SİA-ya açıqlamasında ictimai və mədəniyyət xadimi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxana portalının yaradıcısı, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, son illərdə ölkədə iqtisadi və sosial vəziyyət yaxşılaşdıqca vətəndaşların daha rifahlı həyat arzusu da artır: "İnsanlar yeni mənzillər, maşınlar, bahalı geyimlər, istirahət mərkəzləri və texnoloji cihazlara sahib olmaq istəyirlər. Amma xüsusilə orta və aşağı təbəqəyə aid vətəndaşlar bu arzularını reallaşdırmaq üçün gəlirlərini düzgün hesablamadan borca girirlər. Bəziləri tanışlardan borc alır, digərləri isə kreditlər götürür. Hazırda 30-40 yaş arasında olan bir çox gəncin evlənməməsinin əsas səbəbi də borc yükü ilə bağlıdır.Bəzi insanlar məcburi ehtiyaclar - xəstəlik, ailə xərcləri, toy səbəbilə kredit götürsə də, gənclərin bir hissəsi sadəcə imkanlı şəxslərin həyatını təqlid etmək üçün borca girir. Onlar blogerlərin və zəngin həyat sürənlərin yaşam tərzini kopyalayır, zəhmətsiz varlanmaq istəyirlər. Bu isə ailədaxili problemlərə, boşanmalara, aliment məsələlərinə, kredit böhranına və hətta intiharlara qədər gətirib çıxara bilər.Cənubi Koreya və Yaponiyada da oxşar hallarda kredit böhranları yaşanıb. Buna görə də Azərbaycanda da dövlət, banklar və cəmiyyət bu məsələyə ciddi nəzarət mexanizmi qurmalıdır. İnsanlar "ayağını yorğana görə uzatmaq" prinsipini başa düşməli, maliyyə savadlılığını artırmalı, planlama bacarıqlarını inkişaf etdirməlidirlər". O əlavə edib ki, minimalist və sadə, amma xoşbəxt həyat tərzi anlayışı yenidən formalaşmalı, sosial dəstək və bir-birinə kömək mədəniyyəti gücləndirilməlidir: "Əks halda, kredit borcu problemi daha da ağırlaşaraq cəmiyyətdə sosial gərginliyi artıracaq".

*Fatimə Əliyeva*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**